№ 245 ISSN 1027-3875 15 fevral 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Məsul katib:
Cabir MƏMMƏDLİ

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Zakir N. Yusifoğlu
Fotomüxbir:
Xeyrulla HACIYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 187
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial assistant:
Jabir MAMMADLI

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLİ
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
Ismat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Zakir N. Yusifoglu
Photoreporter:
Kheyrulla HACIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 187
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə

Qəbul qaydalarında yeniliklər 5





Xocalı soyqırımı 8

Fəzlullah Nəiminin iziylə 16





Bakı saatı 27

UŞAQ DÜNYASI



36

Xəbər

"Müharibə hələ bitməyib..."

"Erməni qəsbkarları xarici və başqa amillərdən istifadə edərək bizim torpaqlarımızı işğal ediblər. Bəzən deyirlər ki, ermənilər müharibəni qazanıblar. Bu, əsla belə deyil. Müharibə hələ bitməyib, yalnız birinci dövrü başa çatıb".

Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev Ağdamın Quzanlı qəsəbəsində yeni tikilən Olimpiya İdman Kompleksinin açılış mərasimindəki çıxışında deyib.



Prezident bildirib ki, ermənilər xaricdən aldıqları dəstəklə Azərbaycan torpaqlarını qəsb ediblər. Bunların hamısı 1990-cı illərin əvvəllərində, Azərbaycanın iqtisadi vəziyyətinin aşağı olduğu vaxtlarda baş verib:

"Bu gün Azərbaycan iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından həcm baxımından 5-6 dəfə böyükdür. Biz bütün imkanlarımızı səfərbər edib güclü dövlət, güclü iqtisadiyyat, güclü ordu yaradacağıq və torpaqlarımızın azadlığını təmin edəcəyik. Bütün bu amillər, ordu quruculuğunun inkişafı danışıqlar prosesinə müsbət təsir edir.

Bir il əvvəl Ermənistan Dağlıq Qarabağa müstəqillik verilməsini tələb edirdi, indi isə vəziyyət belə deyil. Ermənilər anlayırlar ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək. Bu təkcə bizim deyil, eyni zamanda beynəlxalq vasitəçilərin də mövqeyidir. Ermənistan bu reallıqla hesablaşmağa məcbur olub. Əgər vaxtilə 4 rayonun Azərbaycana qaytarılması müzakirə edilirdisə, indi 7 rayonun, işğal olunmuş bütün torpaqların qaytarılmasından söhbət gedir. Bunu beynəlxalq vasitəçilər, ATƏT-in Minsk Qrupu Ermənistandan tələb edir. Ermənistan rəhbərliyi bunu qəbul etməyə məcburdur. Bu, çox böyük irəliləyişdir.

Danışıqlar prosesində əldə olunmuş irəliləyişlər Azərbaycanı qane edir. Təklif olunan variantın bizi tam qane etdiyini deyə bilmərəm. Bəzi məsələlər bizi qane etmir, bəzi hallarla razılaşa bilmərik. Bütövlükdə danışıqlar prosesi müsbət istiqamətdə aparılır. Biz buna nail olmuşuq.

Ermənistan artıq anlayır ki, Azərbaycan beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir, Avropanın enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkəyə çevrilir. Qonşu ölkələri və Avropanı enerji resursları ilə təmin edir.

Azərbaycan iqtisadiyyatı artımına görə 3 ildir ki, dünyada birinci yerdədir. Ötən il və bu il orduya ayrılan 2,5 milyard dollar bizim gücümüzü göstərir. Ermənistan bunu bilir və bununla hesablaşmağa məcburdur.

İstəyirik ki, soydaşlarımız tezliklə torpaqlarına qayıtsınlar. Həmin rayonların bərpa olunmasına artıq imkanlarımız var. Biz istəyirik ki, imzalanacaq sülh sazişi Azərbaycanın maraqlarını təmin etsin.

Danışıqlar prosesi davam edir, biz mövqeyimizdən dönməyəcəyik, Azərbaycanın ərazisi müzakirə mövzusu ola bilməz. Dağlıq Qarabağa, orada yaşayan ermənilərə və ora qayıdacaq azərbaycanlılara Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək idarəetmə statusu verilə bilər".

Prezident bildirib ki, Ermənistan xarici ianələr hesabına yaşayan ölkədir, bu dövlətin müstəqilliyi də şərti xarakter daşıyır:

"Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər Dağlıq Qarabağa qonaq kimi gəliblər, sonra isə bizim torpaqlara iddia ediblər. İndiki Ermənistan ərazisi, İrəvan xanlığı da qərbi Azərbaycan torpağıdır".

Beynəlxalq aləmdə gedən proseslərə toxunan İlham Əliyev deyib ki, Avropa ölkələrində muxtariyyətin müxtəlif formaları mövcuddur. Bu məsələlərin hamısı ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunur:

"Təəssüf ki, bəzi hallarda beynəlxalq davranış halları pozulur, beynəlxalq prinsiplərə əməl olunmur, muxtariyyətlər birtərəfli tanınır".

Yenilik

ALİ MƏKTƏBLƏRƏ QƏBUL QAYDALARINDA DƏYİŞİKLİK

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali məktəblərə qəbul qaydalarına dəyişiklik edib. TQDK sədri Məleykə Abbaszadə fevralın 8-də keçirdiyi mətbuat konfransında deyib ki, dəyişikliklər imtahanın məzmunu ilə deyil, təşkili ilə bağlıdır.

TQDK sədri bu dəyişikliyin abituriyentlərin imtahana hazırlığına təsir göstərməyəcəyini bildirib. Yeni qəbul qaydalarını açıqlayan M.Abbaszadə bildirib ki, ali və orta ixtisas məktəblərinə qəbul olmaq istəyən abituri-yentlər martdan başlayaraq sənədlərini İnternetlə təqdim etməlidirlər. Elektron sənəd qəbulu apreldə yekunlaşacaq. Sənəd təqdim edən abituriyentlər ərizələrində əvvəllər olduğu kimi, ixtisasların adlarını deyil, yalnız seçdikləri ixtisas qrupunu qeyd edəcəklər. Qəbul imtahanlarının qrafiki mayda açıqlanacaq. İyunun sonu-iyulun əvvəlində qəbul imtahanları keçirilməyə başlanacaq. İlk imtahan ən çox sənəd verilən ixtisas qrupu üzrə olacaq.

M.Abbaszadənin sözlərinə görə, imtahanın nəticələri bir gün ərzində elan ediləcək və abituriyentlərə imtahan zamanı topladıqları balları göstərən arayış təqdim ediləcək. Bu mərhələdən sonra isə abituriyentlər topladıqları ballar əsasında elektron ərizələrinə ixtisasların adlarını əlavə edəcəklər. Abituriyentlər əvvəllər olduğu kimi, yenə də ərizələrində 8 ixtisası qeyd edə bilərlər. Bundan əlavə, sənəd qəbulunun ikinci mərhələsində abituriyentlər attestatlarının qiymətini və nömrəsini də göstərməlidirlər.

TQDK sənəd qəbulunun ikinci mərhələsindən sonra abituriyentləri topladıqları ballar əsasında ali məktəblərə yerləşdirəcək. M.Abbaszadə bildirib ki, abituriyentlərin imtahan nəticələrini göstərən ballar əvvəlki qayda ilə hesablanacaq



və hesablama zamanı yenə də alt qruplar nəzərə alınacaq.

TQDK sədrinin sözlərinə görə, artıq qəbul qaydalarının layihəsi hazırdır. Yeni qəbul qaydaları fevralın 11-də təsdiqlənəcək. Qəbul qaydalarına yeni dəyişikliyi ictimaiyyətin istəyi ilə gerçəkləşdiklərini deyən TQDK sədri əlavə edib ki, bu ildən ali və orta ixtisas məktəblərinə bir imtahan keçiriləcək. Ona görə də orta ixtisas müəssisələrinə qəbul olmaq istəyənlər də martdan sənədlərini təqdim etməyə başlamalıdır.

SINAQ İMTAHANLARINDA "0"

100 orta məktəbin 11-ci sinif şagirdi sınaq imtahanlarında "0" nəticə əldə edib

Təhsil Nazirliyində "Yeni qiymətləndirmə sistemi: nailiyyətlər, problemlər və qarşıda duran vəzifələr" mövzusunda kollegiya iclası keçirilib.

Təhsil naziri Misir Mərdanov deyib ki, Təhsil Nazirliyi 2004-cü ildən Dünya Bankının dəstəyi ilə orta məktəblərdə yeni qiymətləndirmə sisteminin tətbiqinə başlayıb. Nazirin sözlərinə görə, gələn tədris ilinin əvvəlindən respublikadakı bütün orta məktəblərin birinci sinfilərində kurrikulum tətbiq ediləcək. Birinci siniflərdə yeni kurrikulum tətbiq edildikdən sonra dərs ilinin sonunda qiymətləndirmə aparılacaq və kurrikulum konsepsiyasının təkmilləşdirilməli istiqamətləri müəyyənləşdiriləcək. 2012-ci ildə isə orta məktəblərinin IV və IX sinfilərində milli qiymətləndirilmənin aparılması nəzərdə tutulur.

Nazirin sözlərinə görə, 2006-2007-ci illərdə XI siniflərdə keçirdiyi mərkəzləşdirilmiş buraxılış imtahanlarında Təhsil Nazirliyinin liseyləri 95,63, Səbayel rayonunun orta məktəbləri 85,52 faiz nəticə göstəriblər. Ümumilikdə Təhsil Nazirliyinin liseyləri, Bakının Səbayel, Xətai rayonları, İmişli və Sumqayıt məktəblərində keçirilən mərkəzləşdirilmiş buraxılış imtahanlarında şagirdlər 91,56 faiz nəticə göstəriblər. Bu imtahanlardan aşağı nəticə göstərən 1001 nəfər 11-ci sinif şagirdinin attestat almadığını da söyləyib.

Ötən ilin dekabrında XI siniflərdə ke irilən sınaq imtahanının nəticəsindən razı qalmadığını açıqlayan nazir qeyd edib ki, 52 min 96 şagirdi əhatə edən həmin imtahanda məktəblilərin yalnız 34,4 faizi müvəffəq qiyməti alıb. M.Mərdanovun qeyd etdiyinə görə, imtahan keçirildiyi 893 məktəbdən 100-ü "sıfır" nəticə əldə edib. Nazir aşağı nəticə göstərən məktəblərlə bağlı araşdırma aparacaqlarını və tədbirlər görüləcəyini də nəzərə atdırıb.


Azərbaycanın süni peyki

Azərbaycanın milli süni peyki artıq 2009-cu ilin sonu-2010-cu ilin əvvəlində orbitə çıxarıla bilər. Bunu rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bildirib.

Nazir qeyd edib ki, peykin orbitə buraxılması üçün Beynəlxalq Telekommunikasiya İttifaqının Azərbaycana 2009-cu ildə lisenziya verəcəyi gözlənilir. Lisenziya verilənə qədər milli peykin layihəsi hazırlana bilər. Milli peykin buraxılma prosesinin sürətləndirilməsi və digər məsələlərlə bağlı BTİ-də 6 ay müddətində Azərbaycanın nümayəndəsi çalışacaq. Təşkilatda Azərbaycanı müvəqqəti olaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin informasiya cəmiyyətinin inkişafı şöbəsinin baş məsləhətçisi İlahə Rzayeva təmsil edəcək.

İnternet xidmətlərinin tarifləri azaldılacaq

Bu il Azərbaycanda beynəlxalq telefon danışıqlarının qiyməti və abunə haqlarında dəyişiklik olmasa da, İnternet xidmətinə tariflərin düşəcəyi gözlənilir.



Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bildirib ki, nazirlik bu il İnternet xidmətinin qiymətinin aşağı salınması üçün böyük addımlar atacaq. 2007-ci ildə həm İnternet xidmətləri, həm də beynəlxalq telefon danışıqlarının qiyməti aşağı salınıb, yalnız abunə haqqı artırılıb.

Ə.Abbasov şəhərdaxili stasionar telefon danışıqlarının vaxtla ödənilməsi sisteminə keçid üçün təkliflərin hazırlandığını bildirib: «Əsas məqsəd odur ki, telefon şəbəkəsi səmərəli istifadə edilsin. Hər mobil abunəçi ayda danışığa görə təqribən 15-20 manat ödəyirsə, stasionar telefonla danışıq haqqı üçün 2-3 manat da ödənilmir. Ona görə də bu disbalansı aradan qaldırmaq üçün danışıqların vaxtla ödənilməsinə keçsək və əhalinin aztəminatlı təbəqəsi üçün böyük limit ayırsaq, bu halda yeni sistemi tətbiq etmək olar».

Ə.Abbasov 2008-ci ildə stasionar telefon danışıqlarının vaxtla ödənilməsi sisteminin tətbiqinin gözlənilmədiyini də vurğulayıb.

İstifadəçilərin sayı artıb

Azərbaycanda əhalinin hər 100 nəfərindən 12-si İnternet istifadəçisidir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən verilən məlumata görə, 2006-cı illə müqayisədə ötən il İnternet istifadəçilərinin sayı 20% artıb.

Son 4 il ərzində ölkədaxili İnternet şəbəkəsinin qlobal İnternet şəbəkəsinə qoşulma sürəti 40 dəfə artırılıb və 6 Gbit/saniyəyə çatdırılıb. Nəticədə Azərbaycandan beynəlxalq İnternet şəbəkəsinə informasiya ixracının həcmi 25 dəfə, idxalının həcmi isə 17 dəfə artıb.

Mobil rabitə abunəçiləri


Hazırda Azərbaycanda 4,3 mln. nəfər mobil rabitə abunəçisi var. Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən verilən məlumata görə, ötən il ərzində respublikada mobil abunəçilərin sayı təxminən 1 mln. nəfər, yəni 30% artıb. Hazırda ölkədə hər 100 nəfərdən 50-si mobil rabitə abunəçisidir.

Qeyd edək ki, Azərbaycanda 3 GSM operatoru – «Azercell» Birgə Müəssisəsi, «Bakcell» və «Azərfon» şirkətləri fəaliyyət göstərir. Hazırda «Azercell» BM-nin 3 mln., «Bakcell»in 1 mln., «Azərfon»un 0,3 mln. abunəçisi var.

Sənaye istehsalı

Ötən il ərzində Azərbaycanın sənaye kompleksində 24%-lik artım müşahidə olunub, son 4 ildə isə sənayenin real həcmi 2,4 dəfə artıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə,

2007-ci ildə ölkədə 20 247,8 mln. manatlıq sənaye məhsulu istehsal edilib. İl ərzində ölkədə 41,7 mln. ton neft, 11 mlrd. kubmetr qaz hasil edilib və neft-qaz hasilatı və emalı müəssisələrində istehsalın həcmi 2006-cı ilin səviyyəsini 28,8% üstələyib.



Ötən il ərzində Azərbaycanda ilk dəfə olaraq 420 ədəd «Belarus» tipli traktor və 9 ədəd «MAZ» tipli ağır tonnajlı yük avtomobili istehsal olunub, 8 illik fasilədən sonra yod istehsalı bərpa olunub, yeni kompüterlər, plazma tipli televizorlar və s. istehsal olunub, bir sıra yeni sənaye müəssisələri yaradılıb və məhsul növlərinin çeşidi xeyli genişlənib.

Hesabat ilində neftin hasilatında 29,4% və emalında 7,3%, qazın hasilatında 81,6%, rezin və plastik kütlə məmulatlarının istehsalında 42,9%, maşın və avadanlıqların istehsalında 57,7%, nəqliyyat vasitələri və avadanlıqlarının istehsalında 23,3%, oduncaqların emalı və ağacdan məmulatların istehsalında 6,6%, qida məhsullarının istehsalında 10,1%, tikinti materiallarının istehsalında isə 28,8%-lik artım müşahidə olunub.

Qeyd edək ki, istehsalın 93,8%-i malların, 6,2%-i isə sənaye xarakterli xidmətlərin payına düşüb. Sənaye məhsulunun 22,6%-i dövlət müəssisələrində, 77,4%-i isə özəl bölmədə istehsal edilərək müvafiq olaraq 1,6% və 32,6% artıb.

İqtisadi artım

Ötən il ərzində Azərbaycanda 25 228,1 mln. manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 25% və yaxud müqayisəli qiymətlərlə 4,7 mlrd. manat çoxdur.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ÜDM-nin əhalinin hər nəfərinə düşən həcmi 23,6% artaraq 2 980,9 manata (3 473,9 ABŞ dollarına) çatıb. İqtisadiyyatın bütün sahələrində 2007-ci ildə cari qiymətlərlə 36,9 mlrd. manatlıq məhsul istehsal olunub və xidmətlər göstərilib və bu məqsədlə 13,5 mlrd. manatlıq və ya məhsul buraxılışının 36,6%-i qədər mal və xidmətlər sərf edilib.

ÜDM-nin 72,5%-i iqtisadiyyatın istehsal, 20,2%-i xidmət sahələrinin payına düşüb, məhsula və idxala xalis vergilər isə ÜDM-nin 7,3%-ni təşkil edib.

ÜDM-nin 59,2%-i sənayedə, 7,1%-i tikintidə, 6,2%-i kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 5,2%-i topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər sahəsində, 4,2%-i nəqliyyatda, 1,9%-i rabitədə, 0,6%-i mehmanxana və restoranlarda, 8,3%-i isə sosial və digər xidmətlər sahələrində istehsal edilib.

Ötən il sənayedə yaranmış əlavə dəyərin əvvəlki illə müqayisədə 35% artması ilə yanaşı, poçt və rabitə xidmətləri sahəsində 32%, tikintidə 16%, ticarət və xidmət sahələrində 15,3%, nəqliyyatda isə 13,6% artıb.

Ötən il 85 mindən çox avtomobil gətirilib

"2007-ci ildə Azərbaycana xaricdən 85 mindən çox avtomobil gətirilib. Hazırda ölkədə 780 min avtomobil qeydiyyatdadır. Son 10 ildə ölkədəki avtomobillərin sayı iki dəfə artıb".



Bunu daxili işlər naziri Ramil Usubov deyib. Bu artımın müsbət və mənfi təsirlərinin olduğunu bildirən nazir ölkədə yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb: "Bunun üçün həm nəzarət gücləndirilib, həm də xidmətdə yeni texniki vasitələrdən istifadə edilir. Qanunun sərtləşdirilməsi və yol hərəkəti qaydalarını pozan sürücülərin cəzalarının ağırlaşdırılması da müsbət təsirini də göstərib".

(APA)

Tarixin yaddaşı

XOCALI SOYQIRIMI

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlamışdır. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdür. Belə bir vəziyyətdə, erməni əhatəsində olan şəhərdə qalmiş təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olmuşdur. Ancaq bu niyyət baş tutmadi. Şəhəri yerlə yeksan etmiş erməni silahlı dəstələri və motoatıcı alayın hərbiçiləri dinc əhaliyə divan tutdular.

Bu qırğının nəticəsində 613 nəfər həlak olmuşdur, onlardan:

uşaqlar - 63 nəfər;

qadınlar - 106 nəfər;

qocalar - 70 nəfər 8 ailə tamamilə məhv edilmişdir;

25 uşaq hər iki valideynini itirmişdir;

130 uşaq valideynlərindən birini itirmişdir;

487 nəfər yaralanmışdır, onlardan:

uşaqlar - 76 nəfər;

1275 nəfər əsir götürülmüşdür:

150 nəfər itkin düşmüşdür:

Dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdur:

Bu rəqəmlər Ermənistan SSR-in dəstəyi və SSRİ rəhbərliyinin səhlənkarlığı ilə 1988-ci ildə başlamış və Azərbaycan SSR-in tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi iddiasının gerçəkləşdirilməsi əsasında yaranmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli, qanlı faciəsindən xəbər verir.

Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağının sisiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıdadır.

Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi adibələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş



qutular, kurqanlar və nekroloqlar tapılmışdır. Həmçinin burada arxitertur abidələr - dairəvi qəbr (1356-1357-ci illər) və mabzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır.

Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur. Şəhərdə toxuculuq fabriki, 2 orta məktəb və 2 natamam orta məktəb var idi.

Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri şəhərdə məskunlaşmışdılar.

Sonralar erməni tərəfi etiraf etmişdir ki, erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əskəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan aeroportun ələ keçirilməsi idi.

"Xocalı platsdarmının məhv edilməsi" sözlərinə diqqət yetirin. İndi söylənilən bu ifadə ermənilər tərəfindən törədilmiş qanlı qırğının, kütləvi surətdə uşaqların, qadınların, qocaların məhv edilməsinin səbəbini aydın göstərir.

Faciənin xronikası

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəçilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz



qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-ci alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarğısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Bu hadisələr regiona İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin vasitəçilik missiyası ilə səfəri günlərinə təsadüf etmişdir. O, fevralın 25-də Azərbaycanın hakimiyyət rəhbərləri ilə görüşmüş və fevralın 27-də Qarabağa, sonra isə Ermənistana səfər planlaşdırırdı. bununla əlaqədar olaraq tərəflərin razılığı ilə fevralın 27-dən martın 1-dək üçgünlük atəşkəs elan edilmişdi. Ermənilər ona məhəl qoymadılar və vədlərinə xilaf çıxdılar.

Oxşar vəziyyət fevralın 12-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının missiyasının vəziyyətlə tanışlıq və münaqişənin tənzimlənməsi məsələrinin təhlili məqsədilə Qarabağa gəldiyi zaman da baş vermişdi. Missiyya sonra Yerevana və Bakıya səfər etməli idi. Məhz fevralın 12-də erməni silahlı dəstələri tərəfindən Şuşanın Malıbəyli və Quşçular kəndləri qarət edilmiş və yandırılmışdır, təkcə Malıbəylidə 50 nəfər



öldürülmüş, yaralnmış və əsir götürülmüşdür.

Həmin günlərdə Azərbaycan qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyidlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gişlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular.

Fevralın 28-də tərkibində yerli jurnalistlərdə olan qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilər güclü atəşi altında ancaq 4 meyidi götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyidlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxardılması, ətrafların rəsilməsi, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Xarici mətbuatın səhifələrində

"Krua l'Eveneman" jurnalı (Paris), 25 fevral 1992-ci il: Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar minlələr ölənlər barədə xəbər verirlər.


"Sandi Tayms" qəzeti (London), 1 mart 1992-ci il: Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər.

"Faynenşl Tayms" qəzeti (London), 9 mart 1992-ci il: Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar.

Livanlı kinoopèrator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

"Tayms" qəzeti (London), 4 mart 1992-ci il: Çöxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

"İzvestiya" (Moskva), 4 mart 1992-ci il: Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür.



"Faynenşl Tayms" qəzeti (London), 14 mart 1992-ci il: General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbiçisi Dağlıq Qarabağda qalmışdır.

"Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il: Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır.

"İzvestiya" (Moskva), 13 mart 1992-ci il: Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyid gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

"Valer aktuel" jurnalı (Paris), 14 mart 1992-ci il: Bu "müxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir

texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.



R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.

"Memorial" hüquqmüdafiə mərkəzinin hesabatından:

Xocalı 1991-ci ilin payızından erməni silahlı dəstələri tərəfindən əsasən blokadaya alınmışdı, Dağlıq Qarabağdan daxili qoşunlar çıxarılandan sonra isə tam blokadada idi. 1992-ci ilin yanvarından Xocalıya elektrik enerjisi verilmirdi. Əhalinin bir hissəsi şəhəri tərk etmişdi, ancaq Xocalı icra hakimiyyətinin başçısı E.Məmmədovun təkidli müraciətlərinə baxmayaraq dinc əhalinin tam evakuasiyasa olunmamışdı.

1992-ci il fevralın 25-də Xocalıya erməni silahlı dəstələrinin hücumu başlandı.

Hücumun iştirakçıları


Hücumda zirehli texnikanın - zirehli maşınların, piyadaların döyüş maşınlarının və tankların dəstəyi ilə Artsaxın Milli Azadlıq Ordusunun (AMAO) hissələri iştirak edirdi.

Təqribən bütün Xocalı qaçqınlarının söylədiklərinə görə şəhərə hücumda Sovet Ordusunun 366-cı alayının hərbiçilərinin iştirak edirdi, hətta onlardan bəziləri şəhərə də girmişlər.

Xocalı fevralın 25-də saat 23-dən toplardan atəşə tutulmağa başlanmışdır. İlk növbədə yaşayış massivində yerləşən kazarma və müdafiə nöqtələri dağıdılmışdı. Piyada hissələr şəhərə fevralın 26-ı saat 1-4 arası girmişdir.

Sonuncu müdafiə nöqtəsi saat 7-də məhv edilmişdir. Şəhərin gülləboranı nəticəsində dinc əhalinin müəyyənləşdirilməmiş miqdarda əmlakı dağılmışdır.

Ağdam və Bakıda Memorialın müşahidəçiləri Xocalıya hücum zamanı şəhəri tərk etmiş 60 nəfərlə sorğu-sual etmişlər. Soruşulanlardan ancaq biri söyləmişdir ki, dəhliz barədə məlumatı olmuşdur. Azad dəhlizlə qaçan əhali Azərbaycanın



Ağdam rayonuna qovuşan ərazidə güllələyə tutulmuşdur və nəticədə coxlu sayda insan həlak olmuşdur.

Şəhər erməni silahlı dəstələri tərəfindən zəbt ediləndə orada 300 dinc əhali, o cümlədən 86 məshəti-türkü qalmışdı. Hər iki tərəfdən alınmış məlumata əsasən, 1992-ci il martın 3-nə Azərbaycan tərəfinə 700-dən artıq şəhərdə və Ağdam yolunda əsir götürülmüş Xocalı sakini təhvil verilmişdir. Onların əsas hissəsini qadınlar və uşaqlar təşkil edirdi.

Müvəqqəti saxlanılma izolyatorunu rəisi mayor Xaçaturyan hətta bir neçə dəqiqətilik təklikdə danışmağa icazə vermədi. Təsadüfən bir dəfə belə söhbət etmək mümkün oldu.



366-cı alay

Xocalı soyqırımında 366-cı alayın rolunu xüsusi qeyd etmək lazımdır. Bu alay Şuşa və Xocalının, Azərbaycanın kəndlərinin atəşə tutulmasında dəfələrlə iştirak etmişdir. Alaydan qaçmış hərbiçilərin ifadələri bu faktları sübut edir və hərbi hissənin şəxsi heyətinin mənəvi durumu və münasibətləri haqqında təsəvvür yaradır. 366-ci alayın təcili surətdə Xankəndidən çıxarılması da bu alayın Xocalı hadisələrində iştirakını sübut edir.

Hərbi hissəni komana heyətinin mənəviyyatsızlığı o həddə çatmışdır ki, güya əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilmədilər. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli oldu. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfər, əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbiçi əmrə tabe olmaqdan boyun qaçıraraq Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Beləliklə də gələcəkdə Azərbaycana qarşı cinayyətlərin törədilməsi, separatçılıq hərəkətlərinin davam etdirilməsinə rəvac verildi. Bunun özü də Xocalı soyqırımında birbaşa iştirakın sübutudur!

Erməni silahlı dəstələri və 366-cı motoatıcı alayın şəxsi heyəti Azərbaycnın yaşayış məntəqələrinin atəşə tutulmasında iştirak etmiş üzvləri Xocalı şəhərində törədilmiş vadalizmin əsas cinayətkarlarıdır.

Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktların - Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqqları Bəyannaməsi, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Sazış, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiiəsi Bəyannaməsinin, həyasızcasına məhəl qoyulmamasıdır.

Bu faciədə həmçinin Azərbaycanın o vaxtkı siyasi və hərbi rəhbərliyi də günahkardır. Ayaz Mütəllibov, Azərbaycanın prezidenti və Ali Baş Komandan olaraq ölkənin ərazi bütövlüyünün, təhlükəsizliyininn və onun vəhəndaşlarının mühafizəsinin təminatçısı kimi Qarabağda,o cümlədə Xocalıda baş verən hadisələrin qarşısının alınması üçün zəruri olan tədbirləri görməmişdir. Ölkənin ali vəzifəli şəxsi kimi Konstitusiya qaydasının, ərazi bütövlüyünün, insanların hüquq və azadlıqlarının müdafiəsini təmin edə bilmədi. Hətta qırğın baş verəndən sonra, xalqın qəzəbindən qorxaraq acı həqiqəti bilməkdən çəkindilər və erməni silahlı cinayətkarlın törətdikləri azğınlıqların həqiqi miqyası barədə məlumatlar gizlədildi.

Xocalı sakinlərinin əmlakı

Şəhərdən qaçan Xocalı sakinləri hətta zəruri əşyaları belə götürə bilməmişdilər. Erməni silahlı qüvvələrinin Xocalıdan çıxardıqları sakinlər də əmlaklarından heç nə götürməmişdilər. Memorialın müşahidəçiləri şəhərdə azğın, heç nə ilə qarşısı alınmayan soyğunçuluğun şahidi olmuşlar. Şəhərdə qalan əmlak Stepanakert və yaxınlıqdakı yaşayış məntəqələrinin əhalisi tərəfindən daşınırdı. Çox evlərin darvazalarında onların yeni sahiblərinin adları yazılmışdır.

Alınmış məlumatların qiymətləndirilməsi Xocalının zəbt olunması üzrə həyata keçirilmiş hərbi əməliyyat zamanı şəhərin dinc əhalisinə qarçı kütləvi zorakılıq törədilmişdir. Azad dəhliz barədə məlumat Xocalının əhalisinin çoxuna çatdırılmamışdır.

Azad dəhliz və onun yaxınlığındakı ərazidə dinc əhalinin kütləvi qırğınına hec bir cəhdlə haqq qazandırmaq olmaz.

Xocalıya hücumda Müstəqil Dövlətlər Bir-



liyinin ordusuna məxsus olan 366-cı motoatıcı alayın hərbiçiləri iştirak etmişdir.

Memorial hüquqmüdafiə mərkəzi təsdiq edir ki, Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə konvensiyasına, həmçinin Ümumdünya İnsan Haqqları Bəyannaməsinin (BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul etmişdir) aşağıdakı maddələrinə kobud qaydada ziddir:

maddə 2. Hər bir şəxs ... dilindən, ... dinindən, ... milliyyətindən ... və digər səbəbdən, fərq qoyulmadan bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

maddə 3. Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

maddə 5. İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.

maddə 9. Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.

maddə 17. Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsinin qadağandır.

Silahlı dəstələrin hərəkətləri Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə (BMT-nin Baş Assambleyası 14.12.19748-cü ildə qəbul etmişdir) kobud qaydada ziddir.

Tarix unutmayacaqdır

Azərbaycan Milli Məclisi (Parlamenti) hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.

Doğma yurdlarında didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünü bərpa edilməsini ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.

Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə genosid və etnik təmizləmə hadisələri baş vermiş tarixi səhifələr olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Hal-hazırda, bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş şəxslər hələlik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcəkdir ki, onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar.

Tarix heç nəyi unutmur!..

Mədəniyyət



DÜNYA ŞÖHRƏTLİ BƏSTƏKARIN XATİRƏSİ

Dahi bəstəkar Qara Qarayevin 90 illik yubileyi qeyd edilmişdir

Fevralın 5-də Azərbaycanın dünya şöhrətli bəstəkarı, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı Qara Qarayevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar respublika musiqi ictimaiyyətinin nümayəndələri Fəxri Xiyabana gələrək, xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə çıxış edərək demişdir ki, Qara Qarayev dünya şöhrətli bəstəkar olmaqla yanaşı, həm də böyük müəllim idi, onun rəhbərliyi ilə bir çox şöhrətli bəstəkarlar yetişmişdir.

Tanınmış bəstəkar, xalq artisti, professor Arif Məlikov Qara Qarayevi Azərbaycan musiqisinin zirvəsi adlandırmış, qədirbilən xalqımızın onun parlaq xatirəsini daim yad edəcəyini söyləmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev jurnalistlərə müsahibəsində Prezident İlham Əliyevin sərəncamı ilə Qara Qarayevin 90 illik yubileyinin mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə təntənəli şəkildə qeyd ediləcəyini vurğulayaraq, dövlətimizin başçısına dərin təşəkkürünü bildirmişdir.

Fevralın 5-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında dövlət və hökumət nümayəndələrinin, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, ictimaiyyət təmsilçilərinin iştirakı ilə dünya şöhrətli bəstəkar, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, dövlət mükafatı laureatı Qara Qarayevin anadan olmasının 90 illiyi münasibətilə təntənəli yubiley gecəsi keçirilmişdir.

Tədbirdə çıxış edən Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev bildirmişdir ki, XX əsr dünya musiqi mədəniyyətinin əsl hadisəsi olan Q.Qarayevin yaradıcılığı bu gün də zəmanəmizlə səsləşir. Çünki onun əsərlərində əsas mövzu kimi insanın səadət və azadlıq uğrunda mübarizəsi öz əksini tapmışdır. İlkin mənbəyindən asılı olmayaraq, - istər gerçək hadisələr, istər müxtəlif xalqlara və dövrlərə məxsus əfsanələr, istərsə də poeziya, bədii nəsr və dramaturji əsərlər olsun, - ən möhtəşəm mövzular bəstəkar üçün bütün ömrü boyu ən başlıca ilhamverici amil olmuşdur. Q.Qarayevin əsərlərindəki mövzu aktuallığı, gözəl melodiyalar, orijinal və rəngarəng harmoniyalar, çoxçalarlı orkestrləşmə və forma kamilliyi bütövlükdə onun yaradıcılığını şah əsərlər sırasına aid etməyə tam əsas verir. Bu səbəbdən onun həmişəyaşar musiqisi hər yerdə və hər zaman dinləyicilər tərəfindən şövqlə qarşılanır.

Natiq demişdir ki, Q.Qarayev Azərbaycan musiqisinin ən gözəl ənənələrini duyub yaradıcı qav-

ramağı ilə yanaşı, onun əsərlərində digər xalqların musiqi mədəniyyəti də kamil sənətkar qələmi ilə öz əksini tapmışdır. "Don Kixot" simfonik qravürlərini, "Alban rapsodiyası"nı və "Vyetnam" süitasını sadalamaq kifayətdir. Ümumbəşəri mövzulara və süjetlərə əsərlər yazan bəstəkar burada da bu və ya digər milli folklorun xüsusiyyətlərini özünün yaradıcılıq təxəyyülünə tabe edir və öz üslubunda onları sanki özününküləşdirir.

Elçin Əfəndiyev vurğulamışdır ki, Qara Qarayevin Azərbaycan musiqi mədəniyyətində yerini tam şəkildə qiymətləndirmək üçün onun nəhəng musiqiçi-ictimaiyyətçi və maarifçilik fəaliyyətini də qeyd etmək lazımdır. Qara Qarayev çox gözəl pedaqoq idi. O, Azərbaycan bəstəkarlıq məktəbinin şərəfini bu gün də yüksəkdə saxlayan bir çox məşhur bəstəkarlar yetişdirmişdir. Q.Qarayevi fitri yaddaşı və professional musiqi sənətinin bütün sahələrində, - bəstəkarlıq texnikası, musiqi quruluşu, harmoniya, polifoniya, məqam sistemləri, orkestr və musiqi tarixindən ensiklopedik bilikləri olan musiqiçi-alim adlandırmaq da olar. O, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü idi.

Bildirilmişdir ki, Q.Qarayevin Azərbaycan xalqına qoyub getdiyi irs dərinliyi və zənginliyinə görə tükənməzdir. Bizdən sonra gələcək nəsillər bu tükənməz xəzinədən özləri üçün hər dəfə yeni-yeni tapıntılar kəşf edəcəklər.

2007-ci ildə Prezident İlham Əliyevin Qara Qarayevin anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında müvafiq Sərəncamını xatırladan xalq yazıçısı demişdir ki, ölkə başçısı hər zaman mədəniyyətimiz və incəsənətimizin inkişafına, tərəqqisinə xüsusi önəm vermişdir.

Gecədə Üzeyr Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında böyük bəstəkarın "Don Kixot", "Yeddi gözəl" və "İldırımlı yollarla" əsərlərindən parçalar səsləndirilmişdir.

Yubiley gecəsində Prezidentin İcra Aparatının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə, BDU-nun prorektoru, professor Nərgiz Paşayeva və digər rəsmi şəxslər iştirak etmişlər.

AzərTAc

2008-ci il Mahmud Kaşğarlı ilidir

Türkiyədə TİKA, Türksoy, Türk Dil Qurumu, Türk Tarix Qurumu, Milli Kitabxana, Avrasiya Yazıçılar Birliyi və digər qurumların iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə çıxış edən Türkiyə mədəniyyət nazirinin müavini İsmət Yılmaz UNESKO-nun (Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının) türk filoloq və mədəniyyətşünası Mahmud Kaşğarlının 1000 illik yubileyi münasibəti ilə 2008-ci ili Mahmud Kaşğarlı ili elan etdiyini bildirib.

Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Dəliömərоğlunun bildirdiyinə görə, müşavirədə türk aliminin şərəfinə müxtəlif tədbirlərin, simpozium və konfransların keçirilməsi planlaşdırılıb. Mahmud Kaşğarlının yubileyinin Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, habelə Çin və Rusiyada qeyd olunması nəzərdə tutulub.

Mədəni-tarixi abidələrin monitorinqi

UNESCO Azərbaycan və Ermənistana göndərəcəyi missiyanın tərkibini təsdiqləyib.

Azərbaycanın UNESCO-dakı nümayəndəliyinin rəhbəri Eleonora Hüseynova bildirib ki, missiyanın tərkibinə müxtəlif ölkələrdən alimlər, tarixçilər, incəsənət xadimləri və digər sahələr üzrə mütəxəssislər daxildir. Onun sözlərinə görə, missiyanın tərkibi təsdiqlənsə də, bəzi məsələlər və regiona gələcək missiyanın səfərinin vaxtı hələ dəqiqləşməyib: "Bu məsələlərlə bağlı hər iki tərəfi qane edən variant tapılmalıdır ki, bunun da üzərində iş gedir". E. Hüseynovanın sözlərinə görə, mədəni və tarixi abidələrin monitorinqini aparacaq missiyanın səfəri tanışlıq xarakteri daşıyacaq.

Axtarışlar, kəşflər



FƏZLULLAH NƏİMİNİN İZİYLƏ

Camal MUSTAFAYEV

Təsəvvüfün (sufiliyin) təzahürlərindən olan hürufilik çoxdan tədqiq edilir. Buna baxmayaraq hürufiliyin nə qədər müəmmaları açılmamış qalmaqdadır. Bu təriqətin banisi Fəzlullah Nəiminin faciəsi belə müəmmalardandır. Onun tarixi taleyi haqqında doğru-dürüst təsəvvürümüz yoxdur. Bu sahədə qaynaqlarda gizli qalan gerçəkləri üzə çıxarmağa, elmə gətirməyə ehtiyac var.

Bu araşdırma həmin ehtiyacı ödəmək üçün qələmə alınıb. Osmanlı imperiyası tarixindən əxz edilən məlumatlar əsasında yazılıb. Həmin məlumatlarda Fəzlullahın faciəsinin sırf siyasi motivi açıqlanır. Şairliyi, şeirləri, hürufi düşüncə tərzi xüsusunda söhbət getmir. Filosof, təriqət başçısı kimi onun fəaliyyətinin mülkiyyət qeyri-bərabərliyinin ziddinə yönəldiyi bildirilir. O, bu üsyankar qayəsi yolunda əzabla edam edilib. Qaynaqların bəzisində diri-diri dərisi soyularaq öldürüldüyü deyilir. Bəzisində isə neçə həmfikirlərilə birgə tonqalda yandırıldığı yazılır. Hadisə Birinci Sultan Muradın (1359-1389) dövründə Türkiyədə vaqe olub. Türk tarixçisi Aşıkpaşa oğlu (1393-1481) hadisəni qısaca təsvir edib. Tarixçi *«Tevarih-i Al-i Osman»* kitabında Fəzlullahın Sultan Muradın vəziri olduğunu xəbər verir. Əcəmdən gəlmiş bu filosof vəzir olanda varlıların mal-mülkünü müsadirə etdirməyi düşünüb. Özünün bu niyyətini Sultan Muradın əliylə gerçəkləşdirmək istəyib. Vəzirin bu qəbildən təklifini padşah qəzəblə rədd edib. Onların arasında olan ciddi söhbət səhnəsi təsvirdə verilib. Bu gərgin ixtilafda Sultan Murad Fəzlullahı vəzirlikdən çıxarıb. Aşıkpaşa oğlunun bu mövzuda yazdığına haşiyədə Fəzlullahın dərisi soyularaq öldürüldüyü əlavə edilib. İndi isə məlumatın mətnini büsbütün iqtibas etmək lazımdır (Azərbaycan türkcəsinə azca uyğunlaşdırmaqla):

«Hekayət: Əcəm vilayətindən bir həkim (filosof) gəldi, Fəzlullah deyirlərdi, padşaha təqrib (yaxınlıq) kəsb etməklə axır vəzir oldu, bir gün padşaha dedi: Sultanım, sənin vilayətində malın (zənginliyin) nəhayəti yoxdur, indi padşahlara adətdir ki, o maldan bəhanəylə padşahın xəzinəsinə götürələr. Padşah ondan sual etdi və dedi: bu dediyin mal nə kimi yerlərdən hasil olur? Fəzlullah dedi: bu məmləkətin xalqının əksəri zəkat verməzlər, indi cəmi vilayətindən bu xalqın zəkatlarını cəbrlə (zorla) almaq gərəkdir, mübaliğə mal cəm olar bu səbəblə. Padşah ona belə cavab verdi ki, ... zəkat və sədəqə füqarənindir, zəkat yeməyəmi müstahakam (layiqəm) ki, müsəlmanlardan cəbrlə zəkat alım, dəxi yeyim dedi. Mənim məmləkətimdə üç halal loğma (yemək) vardır ki, mənim əlimdədir. Bu üç halal loğma qeyri padşahlarda yoxdur dedi. Birisi gümüş mədənləri və birisi kafirlərdən alınan xəracdır və biri dəxi qəzavatlarda (din uğrunda müharibələrdə) alınan qənimət maldır dedi. Mənim mansur (qalib) əsgərlərim bu halal loğma ilə yaşayırlar və ləşgərimə (orduma) haramı yedirib, haramı qə-

bul etmərəm dedi. O zaman Fəzlullahı əzl etdi (vəzirlikdən çıxardı) və bir cavabla xar və həqarət etdi, qatından rədd etdi».

حکایت: عجم ولایتندن بر حکیم کلدی فضل الله دراردی پادشاهه تقرب کسب اتمکله آخر وزیر اولدی بر کون پادشاهه ایدر سلطانم سنك ولایتکده مالك نهایتی یقدر امدی پادشاهلرو عادتدرکم اول مالدن بهانیله پادشاهان خزینه‌سنه کتوروراردی دیو پادشاه اندن سؤال اندی وایتدی بو دیرکك (186 r) مال نه‌دن کلی یراردن حاصل اولور دیو فضل الله ایدر بو مملکتك خلقندن اکثری زکات ورمزلر امدی جمیعی ولایتکدن بو خلقك زکاتلرینی جبرله الماق کرك در مبالغه مال جمع اولور بو سبیله دیو پادشاه انکا بویله جواب وردیکم بره های آیله کفتخور زکات وصدقه خود فرانکدر زکات یمکدی مستحقمکم بکا مسلمانلردن جبرله زکات الم دخی پیم دیو بره سوم ممکنمده اوج حلال لقمه واردرکم بنم المه‌در بو اوج حلال لقمه (186 v) غیر ولایت پادشاهلرنده یقدر دیو بربی کشی معدنلری وبربی کفاردن النان خراجدر وبری دخی غزالردن النان غنیمت مالدر دیو بو بنم عسکر منصورم بو حلال لقمه زندکانی ادرلر بونلره بو جبرله النان لقمه خود حرام اولور ولکرومه حرام یدورب حرامی قبول اتمزین دیو اول زمان فضل الله عزل اندی وبر جوابله خور وحقارت اندی قاتندن رد اتدی

Mətnə sonralar əlavə edilən haşiyədə isə belə deyilir: «Haman dəm Fəzlullahın ağlı getdi, aləmin pənahı padşah o mülhidə (dinsizə) əzim qəzəbə gəlib əmr etdi cəlladlara ki, bunun dərisini üzüb belinə vurunca, çarşılarda nida edərsiz ki, padşaha xilaf olaraq kim qanunu ləğv edərsə cəza budur, diyə gəzdirib, sonra dərisinə saman doldurdular, bu əzabla qətl olmuşdu Murad xan zamanında».

(Aşıkpaşa oğlu. «Tevarih-i Al-i Osman», Leipzig, 1928, sayfa 194).

Mətndən göründüyü kimi, Fəzlullah, Sultan Muradın vəziri olaraq, vergi sisteminə nəzarət edib. Vəzifəsinə əsasən, vergidə dəyişikliklər həyata keçirmək fikrində olub. Onun niyyətinin əsas cəhəti bu sözlərində ifadə edilib: *«Sultanım, sənin vilayətində malın (zənginliyin) nəhayəti yoxdur, indi padşahlara adətdir ki, o maldan bəhanəylə padşahın xəzinəsinə götürələr»*. Vəzirin padşaha bu tövsiyəsi, mahiyyət etibarilə, zənginlərin mal-mülkünü müsadirə etməyə yönəldirdi. Fəzlullahın təşəbbüsü feodal hakimiyyəti üçün, əlbəttə, təhlükəli idi. Sultan Murad onu vəzir taxtından endirdi; saraydan uzaqlaşdırdı. Ancaq sonra bəzi saray məmurları, xəbərçilər Fəzlullahın edam edilməsinə padşahı təhrik etdilər.

XVII əsrin türk tarixçisi Hüseyn bu hadisənin gedişini nisbətən geniş izləyib. O, Fəzlullahın tonqalda yandırılmasına dair məlumatı təsvir edib. Müəllifin *«Beda'i-ul-veka'i» («Heyrətamiz hadisələr»)* əsərində bu tarixi məlumata rast gəlirik. Bu əsər indiyə qədər yalnız əlyazması kimi mövcuddur. Onun faksimilini rus şərqşünası A.S.Tveritinova 1961-də Moskvada nəşr etdirib. Bu əlyazması iri həcmli iki cilddə ehtiva edilib. Fəzlullahın taleyindən

زیاده حقم بوفقد دیو ایتمش روایت حدیث ده حیدر هرو یدن
مجاذا اولوب صحیح بخاری قرائتی خواجه زاده دن کمل ایلمز حکایت
جنت مکان سلطان محمد خان فرقه یه حروفیه یه رئیس اولان
فضل الله تبریزی اتباعندن بعضی ملاقات پادشاه ایدوب کلمات
مزخرفه الله قلبنی جذب ایلمش محمود پاشا آنی دوراتمکده صرف مقدور
ایدردی کتن پادشاهك زیاده میلان مشاهده آیلمك ایله اقدام ایده
یا لاخره مولانا فخرالدین نام اردی مولانا اول ملحدك کلمات فاسدی
بالذات استماع مراد ایتمکین پاشا اول بی مذهبی منزلنه کتوروب مولانای
پنهان آیلدی و مذهبلرینه میل حاصل ترکو ستر مکله درونندکی مقاصدی اظهاره بشلایوب مآل اعتقادلری حاصل واریحق مولانا
صبر ایده میوب ملحدك اخذینه مباشرت ایلدکده سرایه قاچدی
مولانا طلبلرندن دقت ایدوب پادشاهی قایل اندی و انلری الوب
اوزرنه یکی جامعنه ایلتوب موذنلره صلا اندروب خلقی جمع
ایدوب و منبره چیقوب اول ملحدك الحاد وزندقه لرین ووجوب
قتلرین و معاونت ایدنلرك ثواب عظیمه نائل اولملرین بیان وآنکله
یاقلرینه ترغیب آیلدی و نماز کاه صحراسنده اوزون جمع
ایدوب آنلری آنکله یاقدی حتی آنکله بالذات اوفورمکله صفالله

hekayət birinci cilddi öz əksini tapıb. Əvvəlcə onun Təbrizli olması bir həqiqət olaraq vurğulanır. *«Firqeyi hurufiyyeye reis olan Fezlullah Tebrizi»* sözlərilə başlayır Hüseyn onun haqqında hekayətini. Onun söylədiyi bu məlumatı iqtibas etməzdən əvvəl bir cəhəti bildirmək lazım gəlir. O, tarixi anladanda ərəb, fars sözlərini çox işlədir. Mətnini xatırladanda bəzi kəlmələrinin Azərbaycan türkcəsində anlaşıqlı qarşılığını işlətmək lüzumu meydana çıxdı. Onun Fəzlullah haqqında yazdığı məlumat isə bütünlükdə budur: «Firqəyi hurufiyyəyə rəis olan Fəzlullah Təbrizi padşaha yaxın olduğundan, yaltaqlıq edib, bəzi uydurma söhbətlərilə qəlbini cəzb eləmişdi. Mahmud Paşa onu dövr etməyə (nəzarətdə saxlamağa) vaxt sərf edərdi. Padşahın ziyadə meylini müşahidə etməklə iqdam edəmməyib (dayanmayıb), axırda Mevlana Fəxrəddinə yalvardı. Mevlananın o mülhidin fəsadçı sözlərini özündən eşitməsi məqsədilə, Paşa o bimәzhəbi mənzilinə götürüb, Mevlananı pünhan eylədi və (Fəzlullahın) məzhəblərinə surətən (zahirən) meyl göstərəndə o, dərunində olan məqsədini izhara başlayanda, əsl etiqadına nüfuz edincə, Mevlana səbr edəmməyib, mülhidin ağzından eşitcək, saraya qaçdı; Mevlana tələbələrini də dəvət edib, padşahı qail (razı) etdi və onları (tələbələri) alıb, Ədirnənin iki məscidinə gətirdi, müəzzinlərə car çəkdirdi, xalqı

cəm etdi və minbərə çıxıb, o fəsadçıların, mülhid və zındıqların qətllərini vacib bilənlərin və onlara müqavimət edənlərin əzim savaba nail olacaqlarını bəyan etdi, atəşə yaxmalaranıa coşdurdu və.Təmazgah səhrasında odun cəm edib onları atəşə yaxdı, hətta atəşi paltodan üfürməklə sağ qalanlar oldu, biri qaçıb canını qurtardı, bir miqdar yandı». *(Hüseyn, «Beda'i-ul-veka'i», Moskova, 1961, 1-ci cilt, sayfa 324-325).*

Müəllifin yazdığı bu əhvalatlar Fəzlullahın taleyini tarixi gerçək cəhətdən araşdırmaq imkanını artırır. İlk növbədə onun doğma yurdunun Təbriz olması doğrudur. Onun irsinin Marburqda saxlanılan əlyazması bunu açıq təsdiqləyir. (293 MS. Orient. Oct.2241 Staatsbibliothek. Fadl-Allah b. Abu-Muhammad at-Tabrizi al-Hurufi).

Tarixçinin qalan məlumatları bir qədər geniş şərh edilməlidir. Hekayətdən məlum olur: Fəzlullah vəzirlikdən çıxarılandan sonra müəyyən vaxt göz həbsinə alınıb. Ancaq «fəsadçı» fikrindən dönməyib; gizli olaraq yaymağa çalışıb. Bu yöndə ona istinadgah olan hürufi həmfikirləri idilər. Onu ciddi nəzarətdə saxlayan isə Mahmud Paşa olub. Bu şəxs o zaman Baş müfti vəzifəsini daşıyırdı. (Türk şairi Ənvəri *«Düsturnamə»* poemasını ona həsr etmişdi). Mahmud Paşa özünü Fəzlullaha zahirən bir dost kimi göstərirdi; onun etimadını qazanmışdı. Bununla bərabər Baş müfti onu gizlicə izləməyindən qalmırdı. Bu işə eyni zamanda Mevlana Fəxrəddin Əcəmini bir casus kimi cəlb etmişdi. Bu şəxsin özü kim idi, hansı mövqe sahibiydi? Əcəmdən Türkiyəyə gəlib, burda saray mühitinə yaxın olmuşdu. Ədirnədə müdərris idi, bundan əlavə müfti təyin edilmişdi. Həyat şəraitindən razı idi: maaşda otuz axçadan artıqdan imtina etdiyini yazır Hüseyn. Görünür, Mahmud Paşaya qulluq göstərmək istəyi Mevlananı Fəzlullaha qarşı casusluğa təşviq etmişdi. Bu təriqət başçısının sirrini saraya xəbər verməklə, onun qətlinin zəruriliyinə padşahı inandırmışdı. Fəzlullahı neçə hürufilərlə birgə yandırmağa fanatik dindarları qızışdıran Mevlana Fəxrəddin Əcəmi olub.

Onun bu faciəyə baisliyi müxtəlif qaynaqlarda iz buraxıb. XVII əsrin məşhur türk səyyahı Evliya Çələbinin *«Səyahətnamə»*sində bu hadisəyə toxunulub. Müəllif həmin əsərdə bu xüsusda gərəkli qeydlər edib. Bu qeydlərin əvvəlində xüsusən bir məlumatı diqqətə yetirir: «Mevlana Fəxrəddin əl-Əcəmi Ədirnədə bir hərfi (hürufi) zındığa məzhəbinə salik olub, neçə adamı mürtəd edərək, həm zal, həm məzl olmuş». *(Evliya Çelebi, Seyahatname, İstanbul, 1896, 3-cü cilt, sayfa 475).*

Evliya Çelebi burda Mevlananın hürufilik məzhəbindən olduğunu bildirir. Mevlana Fəxrəddin bu təriqətə qarşı daxildən satqınlıq edirmiş. O, firqə yoldaşlarını «zındıqlar», «mürtədlər» adıyla güdaza verib. Evliya Çələbi onun satqınlığı ilə bağlı «həm zal, həm məzl olmuş» deyir. Bu ifadədə «zal olmaq» - yolunu azmaq, «məzl olmaq» - yolu azdırmaq mənası daşıyır.

Evliya Çelebi sonra Mevlananın şəriət əsasında hürufiləri zındıqlar, mürtədlər elan etdiyini yazıb. Hürufilərin müqavimət göstərdiklərinə səthi şəkildə işarə edib. Onun bu qeydləri türk tarixçisi Hüseynin məlumatilə səsləşir.

Qaynaqlarda Fəzlullahla bağlı yazılan hekayət Nəsiminin bəzi şeirlərində rast gəlinən məlumata uyğundur. Bu növ əks-sədalar yeri gəldikcə müvafiq nümunələr əsasında əyani surətdə göstəriləcək. Ancaq mətləbə keçmək üçün vacib bir məlumatı söyləyək. Nəsimi Birinci Sultan Muradın zamanında Türkiyəyə gəlmişdi; hürufi təriqətçisi olaraq fəaliyyət göstərirdi. Nəsiminin Türkiyəyə can atdığını bildirən bu misraları məşhurdur:

«Neylərəm mən bunda durub, çünki dildar andadır,
Sanma kim, anda dediyim Bursa ya Larandadır».

(Larəndə Qaraman qəsəbəsinin əvvəl daşıdığı addır - Konya vilayətindədir).

Şübhəsiz, Nəsimini Türkiyəyə dəvət edən vəzir Fəzlullah idi. Bu vəzir geniş nüfuzlu təriqət əhlini himayə edir; fəaliyyətlərinə əlverişli şərait yaratmağa çalışırdı. Hətta onlar üçün xüsusi bina inşa etdirdiyini Aşıkpaşa oğlu öz əsərində bildirib.

Nəsimi şeirlərinin birində özünü təqdim edəndə ona «Ruma gəlmiş kafir» dediklərini bildirir. Həqiqətən, mübariz təriqətçi kimi əleyhdarlarının sərt müqaviməti ilə üzləşirdi. Təqib edildiyini, məhbəslərə atıldığını məqamı gəldikcə dilə gətirib. Baş qazi Mahmud Paşanın onları aldatdığını, xainliyini şifrəli bir üsulla xəbər verib.

«Ol şahın adı ki, həqdən Əhmədi Mahmud idi,
Tə qəzadır, maməzadır, ta müqəddərdır qədər».

Bu beytdə birinci misra açıqdır: Mahmud Paşa xatırlanır. İkinci misrada isə sözlərin mənasını açmağa ehtiyac var. Təqəza (Təqaz)- məhkəmə hüzuruna çıxmaq, yaxud mühakimə olunmaqdır. Maməzad (Məzad) əks tərəf, qarşı duran tərəf mənasındadır. Müqəddər qədər (Qadər) xain, satqın, xainlik edən deməkdir. Bu sözlər ehtiyatla deyildiyi üçün belə pərdəli şəkildədir. Burda Mahmud Paşanın ünvanına gizli bir lənət oxunur. Hürufiləri əvvəlcə riyakarlıqla aldadıb, sonra məhkəməyə çəkdiyi üçün.

Başqa bir şeirində Mevlanaya qarşı bəslədiyi qəzəb, nifrət hissini açıq əks etdirib.

«Zahid-i zərraqı hər dəm oda yandırmaq gərək
Gərçi məndən eşidərsən Şeyx həm Mevlanəni».

Burda odda yandırılması tələb edilən Şeyxin adı xatırlanmır. Ancaq Mevlananın adı, Fəzlullahın qətlinin səbəbkarı kimi, yuxarıda araşdırılan tarixi məlumatlardan tanışdır.

Nəsiminin Mahmud Paşa, yaxud Mevlana haqqında sözləri əslində ilk qaynaq sayıla bilər. Fəzlullahın edam edilməsinin baisləri xüsusunda Hüseynin anladılan məlumatı bu qaynaq əsasında təsdiqlənir.

Nəsiminin neçə şeirlərində Fəzlullahın faciəli qətlinin ağrılı təsirini əks etdirən motivlərə rast gəlinir. Hürufilərin «Sahib-i zaman» ünvanilə təbliğ etdikləri pirin faciəsini dünyanın «məhşər günü» adlandırıb.

«İrişdi vədəsi sahib zamanın
Ulu divan quruldu, məhşər oldu».

«Sahib-i zaman» bəşərin haqq-ədalət arzusunu Allahın iradəsilə bərqərar edən mənası daşıyır. Bu anlam eyni zamanda «Mehdi» adıyla ifadə edilir. Fəzlullah ilahi bir missiyanın daşıyıcısı olaraq ideala yüksəldilir. Onun qətli Nəsimini pirindən, böyük əqidə dostundan ayırdı. Mətin iradəsinə baxmayaraq, Nəsimi bu faciədən həqiqətən sarsılmışdı.

«...Ey müsəlmanlar, mədəd, ol yar (dost) pünhan ayrılır,
Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.
...Məhşəri-yövmül-hesab qopdu qiyamət başıma,
Ey Yusif surətli, məndən piri-Kənan ayrılır».

«Bulunmaz» rədifli şeirinin bir yerində, görünür, eyni faciənin təsirilə ürək acısilə deyir:

«Xəlqin əməli azdı könül yıxıcı öküş (öküncətəəssüf)
Bir xəstə könül yapıcı memar bulunmaz».

Fəzlullah edam edilən arada Nəsiminin məhbəsdə olduğunu bəzi motivlərdən hiss etmək olar. Mühakimə olunduğunu qazi Mahmudla bağlı verdiyi məlumatda bildirirdi. Başqa neçə məqamlarda məhbusluğuna işarət etdiyi sətirlərlə rastlaşırıq.

«Fəzli-ilahə canını eylə fəda, Nəsimi, sən
Olma məlul, ayıtma kim, bəndü həsar içindəyəm».

«...Fələk tərsinə dövr eylər, məgər axır zaman oldu,
Qəfəsdə tutiyü qumru,çəməndə qürub (qara qarğa) oynar».

«...Qaziyə nəsnə vermərizrüşvət içün bu dəvidə,
Qaziyi-həqq qatında çün adil imiş şühudumuz».

Nəsiminin qazilərin rüşvətçiliyi haqqında bu sözünü qısaca araşdıraq. Xatırlatdığımız türk tarixçisi Hüseyn Türkiyədə həmin dövrdə qazilərin rüşvət almalarından xüsusi yazırdı. Qanuna zidd olan bu növ halların yayılması səbəbindən xalq haqsızlıqlara məruz qalırdı. İldırım Bayazıdın padşahlığı (1389-1402) zamanında bu vəziyyət getdikcə kəskinləşirdi. «Axır xalqın ah-naləsi padşaha yetişəndə, - yazır Hüseyn, - xabı qəflətdən (ayılıb) agah oldu, təftiş etdirdi». Təftişçilər Anadolu, Rumeli vilayətlərindən 80 nəfər qazini tutub, buxovlayıb padşahın hüzuruna gətirdilər. Padşah onları «ağacdan çatma» evdə həbs etdirib, evə od vurub yandırtmaq istədi. Vəzir Əli Paşanın xahişilə qazilər bundan xilas edildilər. Bu tarixi məlumatla nisbətdə Nəsiminin qazilərin rüşvətçiliyinə işarətinin həqiqət olduğu meydana çıxır. Belə vəziyyətlə məhbusluğunda qarşılaşdığı özünün sözlərindən aydın olur.

İndi isə Fəzlullahla bağlı tarixi gerçəyin başqa gizli nöqtəsini açmaq, anlatmaq lazımdır. Birinci Sultan Muradın vəziri olmasını şərtləndirən amillər açılmalıdır. Daha bir nadir əlyazması həmin sirri diqqətlə izləmək cəhətdən uğurlu tapıntı oldu. Diqqəti çəkən bu əsər *«Haza menakıbı Şeyx Bedreddin bin Qazı İsrail»* adlanır. Alman türkoloq alimi *Franz Babinger 1943-də Leipziqdə* əlyazmanın faksilimini nəşr edib. Bu menkibə Şeyx Bədrəddin Simavinin (1369-1420) həyat hekayətini şeirlə epik biçimdə əks edir. Onun müəllifi Şeyxin öz nəvəsi Halil bin İsmaildır.

Bu qaynağın bir bölməsi (16-17-ci səhifələr) Fəzlullaha həsr edilib. Əlyazmasında Feyzullah yazılıb, ancaq əslində Fəzlullahdan söhbət gedir.

هذا مناقب شيخ بدر الدين بن قاضي اسرائيل

بسم الله الرحمن الرحيم

Menkıbe müəllifinin məlumatına əsasən Fəzlullah Konyada müdərris olub; alim, filosof kimi məşhurlaşıb. Onun nücumda, elmi məanidə (sufizmdə teosofiya – ilahi hikmətin dərki), məntiqdə üstünlüyü söylənilir. Sultan Muradın nəvəsi Musa Çələbi, Simavna qazisi oğlu Bədrəddin, Fəzlullahdan dərs alıblar. Bu müdərrisin şöhrətinə görə Konya mədrəsəsində təhsil almaq həmin gənclərin yüksək arzusuymuş. Onlar arzularına yetmək üçün Sultan Muraddan, Qazi İsraildən izin, xeyir-dua istəmişdilər. O zaman onların bu niyyətləri ürəklərincə yerinə yetmişdi. Fəzlullah isə mədrəsədə Musa Çələbini, Bədrəddini, şənlərinə tərif deyib, səmimi rəğbətlə qarşılamışdı.

«Dedi Feyzullah (Fəzlullah) danişməndləri
Gəldi dərsxanəyə Rumun cevheri...»

Bunlar təhsildə elm, ədəb kəsb etməkdə «cevherini» - istedadını göstərib, bütün tələbələrdən fərqlənmişlər. Dərslərini danışanda nitqləri «Nil, Ceyhun kimi axıcı» olarmış.

«Zinde olsa İbn Sina, Boqrat (Hippokrat)
Hüsnü təbirində olardı mat.
Oxunan dərslərdən bular söz açdılar
Məclisi elmə cevahir sacdılar...»

Musa Çələbi, Bədrəddin Simavi mədrəsədə Fəzlullahdan məntiq, nücum elmlərini, sufizmin sirlərini öyrənmişlər. Fəzlullah bunların istedadını həssaslıqla fərqləndirdiyi üçün, müəllif onu «Şeyx zərif» deyə səciyyələndirir. Ancaq menkıbede onun taleyi haqqında bir söhbət getmir. Yalnız bölmənin sonunda çox ötəri, qeyri-müəyyən tərzdə müəllif bir beytdə yazır:

«Ol zaman içində Şeyx namidar (məşhur)
Getdi Allah əmrinə ey mərdomdar (nəzakət sahibi)».

Menkıbenin anladılan bölməsi iki tarixi sirri birdən açır. Şeyx Bədrəddinin təfəkkür tərzi, dünyagörüşü Fəzlullahın mədrəsəsində yetişib. Onun fəaliyyətinin ideya mənbəyi bu müdərrisin dərslərindən başlamışdı. (Şeyx Bədrəddinin tarixi taleyi haqqında az sonra danışılacaq).

Sultan Muradın nəvəsi Musa Çələbi isə Fəzlullahın vəzirlik vəzifəsinə yüksəlməsinə vasitə olmuşdu. Dərin inam bəslədiyi müdərrisi ilə padşah babası arasında qarşılıqlı bir ünsiyyət yaratmışdı. «Fəzlullahın padşaha yaxınlıq kəsb etməklə vəzir olduğunu» yazan Aşıkpaşa oğlu doğru söyləyib. Sadəcə burda hansı vasitənin səbəb olduğunu qeyd etməmişdi.

Sultan Murad, Fəzlullahla ünsiyyətdə onun alimliyinə hörmətlə yanaşmış, ona böyük vəzifə vermişdi. Padşahı buna sövq edən, əlbəttə, Musa Çələbi olmuşdu.

Bir cəhəti xatırlatmaq lazımdır: Sultan Murad, Fəzlullahı siyasi ixtilaf nəticəsində vəzirlikdən çıxarmışdı. Ancaq onun həyatını saxlamağa çalışmışdı – görünür, nəvəsinin xatirinə. Fəzlullahı nəzarətdə saxlayan Baş qazi Mahmud Paşanın niyyəti isə tamam başqa idi. O, padşahın istəyinin əksinə gedib, Fəzlullahın edam edilməsinin qaçılmazlığına onu inandırmağa çalışırdı. Mevlana Fəxrəddinin casusluğu sayəsində məqsədinə nail olduğu məlumdur. Mahmud Paşanın buna can atdığı, Hüseynin anılan hekayətində ilk əvvəldən nəzərə çarpdırılır. «Padşahın ziyadə meylini müşahidə etməklə iqdam edəmməyib (dayanmayıb), axırda Mevlana Fəxrəddinə yalvardı»...

Bu izahatlardan sonra, Şeyx Bədrəddin Mahmuddan (Simavidən) qısaca söhbət açmaq lazım gəlir. Onun fəaliyyətinin ideya əsaslarının Fəzlullahın dərslərindən başlandığını bildirdik. Hansı ideyadan söhbət getdiyi şərhin gedişində aydın olacaq.

Şeyx Bədrəddin zamanının geniş dünyagörüşlü mütəfəkkir şəxsiyyətlərindən olub. Din, məntiq, təsəvvüf sahələrində bir neçə əsərlər yazıb. Ancaq İldırım Bayazıddan sonra oğulları arasında səltənət savaşı zamanı siyasi səhnəyə atılmışdı. Musa Çələbi qardaşı Süleyman Çələbi ilə müharibədə Ədirnəni ələ keçirib, taxta çıxmışdı (1411). O, burda hökm sürməyə başlayanda, Bədrəddin Simavini Kazıasker (Əsgəri Məhkəmə) təyin etmişdi. Taxta çıxmış bu şahzadə gənclik dostunu himayə edirdi. Şeyx Bədrəddin o dövrdə Türkiyədə mövcud feodal rejiminə qarşı fəal mübarizəyə girişmişdi. Sufiliyin müxtəlif qollarını təmsil edən müridlərin təhrikçi təbliğatını əslində bu məqsədə yönəltmişdi. İslam, xristian, yəhudi məzlumlarına dinlərin bərabərliyini təlqin edirdi. Bu ideya ilə birgə ümumi mülkiyyət şüarlarını yayırdı. Müxtəlif xalqlardan olan camaatı təbliğatla ruhlandırıb, üsyana qaldırmışdı. Getdikcə genişlənən bu üsyan böyük inqilabi hərəkata çevrilmişdi. Bu miqyaslı inqilabda, Börklüce Mustafa, Torlaq Kamal, Bədrəddin Simavinin yaxın silahdaşları olmuşlar. (Məlumatlara əsasən, xatırlanan Torlaq Kamal yəhudi əsilli idi). Börklüce Mustafa Aydın elində, Qara Burunda on mindən ziyadə xalqı ətrafına toplamışdı. Şeyx Bədrəddin inqilabı qanlı döyüşlərdən sonra amansızcasına yatırılmışdı. Şeyxin özü ələ keçirilmişdi; Heydər Hərəvi adında müftinin fitvası ilə edam edilmişdi.

Bu inqilabı əsas qayəsinə, xarakterinə görə Avropada Reformasiya hərəkatlarilə müqayisə etmək olar. Həmin dövrdə Çexoslovakiyada Yan Qus Hərəkatı daha məşhurdu. O, kilsə hökmranlığına qarşı çıxır, papazları imtiyazlardan, mülkiyyətdən məhrum etməyi tələb edirdi. Yan Qus 1415-ci ildə diri-diri tonqalda yandırıldı. Ancaq Şeyx Bədrəddin inqilabını sonralar Almaniyada olmuş kəndli müharibəsi ilə nisbətləşdirmək uyğundur. XVI əsrdə Tomas Münserin başçılıq etdiyi müəzzəm kəndli müharibəsi nəzərdə tutulur. Tomas Münser, eynilə Şeyx Bədrərrin kimi, birlik, bərabərlik şüarı ilə hərəkət edirdi. Zənginlərlə yoxsullar arasında qeyri-bərabərliyi ilk xristianlığın ruhuna zidd olan ədalətsizlik sayırdı. «Zənginlər nemətlərini yoxsullarla bölüşməli olduqları vaxt yetişib» deyirdi. Bu ruhda çağırışlarla əzabkeş dindaşlarını hakim təbəqəyə qarşı kütləvi üsyana təhrik etmişdi.

Anılan üsyanların izlədiyi niyyət utopik kommunizm səciyyəsi daşıyırdı. Burda bir həqiqəti vurğulayaq: Şərqdə, yaxud Avropada sosial utopiyalar zəngin tarixə malikdir. Varlı, yoxsul, hakim, məhkum siniflərə bölünməyən, istismarsız bir cəmiyyət arzulamaq – əzəli idealdır. Folklorda, dinlərdə, poeziyada, fəlsəfədə bu ideal tarixən zamanın gerçəkliyinə uyğun yenidən dirçəlib. Sosial-siyasi zülmə qarşı xalq ovqatını əks etdirib. Bəzən radikal xarakter kəsb edib; siyasi üsyanla nəticələnib.

Bədrəddin Simavinin bu cəhətdən fəaliyyəti təsəvvüf görüşlərindən üsyankar ruhlu nəticə çıxarmasilə şərtlənib. Əsərləri sırasında *«Varidat»* kitabını təsəvvüfə (sufiliyə) həsr etmişdi. Onun əsərlərinin adlarını xatırladan nəvəsi «Varidat»ı, xüsusən fərqləndirirdi. Babasının, Musa Çələbi ilə bərabər

sufizmin sirrini-elmi məanini Fəzlullahdan öyrəndiyini yazırdı. «Elmi məani» anlamı əslində insanda ilahi başlanğıcı dərk etmək mənasını ifadə edir. İnsan varlığında ilahi ruhun öz-özünü dərk etməsi-sufizmin əsası, əsl qayəsidir. Onun vəhdət, bərabərlik, kamil insan idealı bu batini, intuitiv idrakdan irəli gəlir. Mütəsəvvifin tapındığı Vəhdət eşqi, cəmiyyətin təbəqələrə, əks qütblərə bölünməsi ilə ziddiyyətdə idi. Sufizmdə azadfikirlik meylləri bu zəmində öz əksini tapırdı. Bəzən bu azadfikirlik sadəcə dünyagörüşü çərçivəsinə qapanıb qalmırdı. Cəmiyyətdə haqsızlıqlar doğuran sosial təzadlar ilə mübarizəyə sövq edir, siyasi ixtilafa gətirirdi. Sufilərdən neçələri siyasi niyyət güddükləri üçün öz ömür kitablarını faciəli sonluqla bitiriblər. «Ənə'l-Həqq» nidasilə sufiləri ruhlandıran Xəllac Mənsur panteist dünyagörüşü üçünmü dara çəkildi? Xəllac Mənsurun müasiri İbni ən-Nədim onun hiyləgər xislətə malik olduğunu yazıb. «...Ancaq sultanların qarşısında cəsarət göstərirdi, böyük işlərə girişirdi və hökumət devirməyə can atırdı. Davamçılarına özündə ilahiyyət olduğunu, Allahla birləşdiyini söyləyirdi». (Annemarie Schimmel, Tasavvufun boyutları (ölçüləri), İstanbul, 2000, sayfa 78. Türkçesi Yaşar Keçeci).

Belə ittihamlar bəzən o cümlədən Nəsiminin ünvanına deyilirdi. *«Aşık Çələbinin təzkirəsi»*ndə (XVI əsr) Nəsimi hökmdarların torpağında fəsad çıxarmaqda suçlandırılır. Təzkirəçinin bu hökmü Nəsiminin bioqrafiyasının siyasi cəhətlərilə bağlıydı. Fəzlullahla bərabər Türkiyədə siyasi fəaliyyəti xüsusunda yuxarıda danışıldı.

Nəsimi Şeyx Bədrəddin hərəkatı ilə əlaqəli idi; menkıbə müəllifi bu məlumatı xatırladıb. Bunu Şeyxin Hələb türkmanlarilə görüşünü təsvir edəndə yazıb. Şeyx burda minlərlə tərəfdarları arasında olsa belə, çox ciddii təqibə məruz qalmışdı. Onu hiylə ilə təqib edən casusun əlindən qurtarıb, dərhal geri Türkiyəyə dönmüşdü. Bu casus bundan əvvəl Nəsiminin qətlinə fitva vermişdi. Menkıbenin 46-cı səhifəsində diqqəti çəkən bu xəbər qısaca belə ifadə edilib:

«Birisi derlər (Şeyxi) oradan götürən
Nəsiminin selinə fitva verən».

Deməli, Nəsiminin faciəli aqibətinin səbəbi Bədrəddinlə müttəfiqliyi idi. Onların ideya, əməl birliyi Fəzlullahın ənənəsinə bağlılıqla şərtlənirdi. Nəsimi Şeyx Bədrəddin üsyanının ideya zəmininin hazırlanmasında yaxından iştirak edən təriqətçilərdən olub. Bu səbəbdən təqiblərlə üzləşir, bir ölkədən başqasına keçirdi. Son dəfə Hələbdə ələ keçmiş, edam edilmişdi. Görünür, burda həbs edilən zaman bir xilas yolu görməyib, bu sətirləri yazmışdı:

«Dedilər, miskin Nəsimi doğruya yoxdur zaval,
Müddəilər qalib oldu, hazır olgil başına».

Menkıbe müəllifi təsvirində Nəsiminin Hələb türkmanlarından olduğunu bildirirdi. Bu məlumatın tarixi gerçəyə uyğunluğunu Nəsiminin bəzi sətirlərilə müqayisədə aydın görmək olar. Belə bir nümunə ilə bu fikri əsaslandıra bilərik:

«...Nil irmağı daşdı, tutdu Misrin çöhrəsin,
Uş Hələb Bağdadı buldum gör necə şad olmuşam.
Ta İraqıstanı gəzdim, bir müvəhhid bulmadım,
Aşıqi-Misrəm, yenə müştaqi-Bağdad olmuşam».

«Nil irmağı daşdı...» sözləri yəqin Misirdə qarşılaşdığı həyəcanlı ictimai hadisənin rəmzi ifadəsidir. Bu hadisədən qurtarıb, «Hələb Bağdadı bulanda», keçirdiyi böyük sevinc hissini dilə gətirib. «İraqıstanı» - uzaq ölkələri dolaşsa belə, yenə Bağdadı ürəkdən sevib; onun həsrətini çəkib. Gətirilən sətirlərin bütün ruhu Hələb, Bağdad sevgisilə aşılanıb. Nəsimi burda həqiqətən dərin vətən sevgisini ifadə edib.

Nəsiminin Bağdaddan olmasını tarixdə zaman-zaman qeyd ediblər. Lətifi təzkirəsində (XVI əsr) Bağdadda «Nəsim» adlı nahiyədən olduğu əks etdirilib. Bu nahiyyənin adını təxəllüs olaraq daşıdığı qeyd edilir. Ancaq əslində Nəsimi ümumiyyətlə «nəsim» kəlməsinin «səba yeli» mənasına uyğun təxəllüs seçmişdi. Səba yeli təsəvvüfdə ilahi qaynaqdan əsən həyatverici qüvvədir; xeyir başlanğıcının bir rəmzidir. Nəsimi özünün ruhu canlandıran şeirini səba yelinə bənzədir: «Badi-səba İsa kimi gərçi dirildir ölüyü»... Onun sözündə rəmzləri kəşf edən arifin ruhu canlanar: «Ey badi-səba, var, xəbəri yarə ilət kim, Hüdhüd dilidir bunu Süleyman dəxi bilməz...»

Bununla belə Nəsiminin Bağdad əsilli türkman olduğu gerçəkdir. Aşık Çələbinin məlumatına görə Nəsimi türkmandır, ancaq onun Diyarbəkrdən olduğunu söyləyəndə yanılır. XVII əsrin türkmən şairi Əndəlib, soydaşı kimi, Nəsimi haqqında poema yazıb. XIX əsrin rus türkoloqu V.Smirnov Nəsiminin mənşəyindən danışanda belə deyir: «Bioqraflar deyirlər ki, Nəsimi Bağdada yaxın bir kənddə doğulub, milliyyəti isə türkmandır». *(V.Smirnov. oçerk istorii turetskoy literaturı, İPB, 1891).*

Smirnov eyni zamanda Fəzlullahın diri-diri yandırılması haqqında ötəri tərzdə qeyd edib. Ərəb hərflərinin gizli mənasını Quranın təfsirinə tətbiq etdiyinə görə qətl edildiyini deyir. Bu müdhiş qətlin səbəbi isə daha dərin idi.

Belə bir zəruri ricətdən sonra, yenə mövzumuzun ana xəttini tədqiq etməyə qayıdaq. Bu dəfə Fəzlullahla Nəsiminin müasiri, pərəstişkarı olmuş türk şairi Rəfiinin yazdığını incələyək. Rəfii *«Gəncnamə»* poemasında Fəzlullahın, Nəsiminin Türkiyədə fəaliyyəti ilə bağlı müşahidəsini, düşüncələrini yazıb. «Gəncnamə» Nəsimi «*Divanı*»nın bir köhnə nəşrinə əlavə edilib. (İstanbul, 1844).

Rəfiinin yazdığına görə, onun dövründə Türkiyə

mühitində hürufilik bir canlanma, oyanış yaratmışdı.

«San ölmüşdük həyat bulduq,
Zindanda idik nicat bulduq,
Bulduq çun Nəsimini Nəimin,
Oldu bizə rəhməti Rahimin».

Müəllif xüsusilə Fəzlullahın hər tərəfdə tərəfdarlar qazandığını söyləyir. Hürufilərin pirinin qayəsinə qovuşanlar Xızır kimi imdada yetişirlər. Hətta şahzadələr onun təlimini öyrənməyə böyük həvəs göstərirlər. Allahdan başqa heç kimə qul olmaq istəməyənlər – «azadələr» onunla bir olmağı arzulayırlar.

«Fəzlin mədədindən ey müslüman,
Hər guşədə Xızır var firavan,
Yəni nə qədərki qul vardır
Var istəki indi Xızır onlardır.
Şahzadələr olur ona taleb,
Azadələr istər onu raqib...»

«Şahzadələr...» deyəndə, heç şübhəsiz, Musa Çələbini nəzərdə tutur. Onun Fəzlullahın mədrəsəsində Bədrəddin Mahmudla birgə oxumasından danışdıq.

«Gəncnamə»də Fəzlullahın Bədrəddin Mahmudun niyyətlərinə istiqamət verdiyi vurğulanır.

«Ol şəxsin (Fəzlullahın) olur məqamı Mahmud,
Ol verər ona cəmiyi maqsud».

Ancaq o, bu tələbəsinə hansı məqsədi təlqin edirdi? Əsas məqsəd əzabkeş xalqın nicat yolunu göstərmək idi. Bu məqsədi gerçəkləşdirmək üçün, nicat tapan mənası daşıyan «Naci» adında qrup yaradılmışdı.

«Adı bu qoruhun (qrupun) oldu Naci
Hər dərdə bunlar qılır əlacı».

Rəfiinin şahidliyi Fəzlullahla Bədrəddin Simavinin eyni ideala xidmət etdiklərini bir daha göstərir.

Bununla bağlı olaraq, Şeyx Bədrəddin haqqında bir tədqiqata münasibət bildirmək münasib olar. Xatırlayın: *«Şerefeddin Mehmed, Simavna kadısı oğlu Şeyx Bedreddin. İstanbul, 1924».* Müəllif Şeyx Bədrəddinin Konyada Fəzlulahdan dərs aldığını söyləyir. Ancaq bu müdərrisin kimliyini müəyyən edə bilmədiyi üçün, onu təqdim etməyə girişməyib. Hürufilərin rəisi Fəzlullahın ola biləcəyini sadəcə təsəvvür edib. Onun fikrincə Bədrəddin Simavinin «Varidat» əsərində hürufilik təsirinə rast gəlinərsə, gümanı doğrular. Özü isə gümanını doğrultmaq yönündə bir araşdırma etməyib. Şeyx Bədrədinin mədrəsə müəlimi Fəzlullahın kimliyi Şerefeddin Mehmed üçün müəmma olaraq qalıb...

[1]«Varidat» əsərinin taleyinə gəlincə, bu xüsusda Ahmed Cevdet Paşanın (1823-1895) sözlərinə diqqət edin: «(Şeyx Bədrəddinin) elm-i təsəvvüfdən «Varidat»ı daha məşhurdur. Fəqət İstanbulda nüsxəsi tapılmır. Zira əsrimizdə Şeyxülislam olan məşhur Arif Hikmət Bəy əfəndi, bu kitabı harda tapsa, ucuz baha deməyib alar, birdəfəlik yandırıb məhv edərdi» deyir. *(Ahmed Cevdet paşa, Kı"sası enbiya, Peyğamberler tarixi, 16-cı cilt, İstanbul, 1955, sayfa 1745).*

Dini fanatiklər Şeyx Bədrəddinin irsini yaymağı yasaq etmişlər. Onun mənəvi irsini unutdurmağa çalışmaq hansı məqsədi güdürdü? Əlbəttə, məsələ təkcə düşüncə fərqində, fikir ayrılığında deyildi. Əsas məqsəd Bədrəddin Simavinin sosial bərabərsizliyə, zülmə qarşı mübarizəsini təsəvvürlərdən yayındırmaq idi.

Şerefeddin Mehmed isə «Simavna kadısı oğlu Şeyh Bedreddin» kitabında onu səthi anladırdı. Nazim Hikmət Türkiyədə siyasi məhbus olduğu illərdə həmin kitabı əldə edib oxumuşdu. Onun Şeyx Bədrəddin idealına zidd ruhda olduğunu düşünmüşdü. Özü Şeyx Bədrəddinin bərabərlik, birlik, qardaşlıq ideallarını dəyərləndirən maraqlı poetik dastan yazmışdı. *(Nazim Hikmet, Simavna kadısı oğlu Şeyh Bedreddin dastanı. Ankara, Dostyayınları, 1966. Atacın bir incelemesiyle).*

Tədqiqatın sonluğunda Fəzlullahla bağlı söhbətimizi yenidən davam etdirək. Burda Cemal Berdakcının *«Anadolu isyanları»* araşdırmasını gözdən keçirək. Müəllif Şeyx Bədrəddin üsyanına təriqətçilərin təhrik etdiklərindən danışır. Hürufi təriqətinin təhrikçi təbliğatının daha şiddətli olduğunu yazır. «Hürufiliyin müəssisi olan Fəzlullah Astrabadinin müridləri bir bəla və müsibət tufanı kimi Anadolu içərilərinə yayılaraq və rast gəldikləri Bəktaşi təkkələrinə də girərək təlqinlərə və propaqandılara başlamışlardı. Fəzlin məşhur şagirdi Əli də (Nəsiminin əsl adıdır) Bəktaşi təkkəsinə yerləşərək, Bəktaşilik namı altında hürufilik əqidələrini nəşrə çalışmışdı. Fəriştəh oğlunun həzyanlarla dolu *«Cavidanı da («Cavidani-namə»)* ortada dolaşırdı». *(Cemal Berdakcı, Eski Konya valisi, Anadolu isyanları, İstanbul, 1940, sayfa 87).*

Göründüyü kimi, Cemal Berdakcı Şeyx Bədrəddin üsyanının ideya qaynaqlarını gerçəyə uyğun göstərib. Fəzlullahla Nəsiminin bu cəhətdən fəaliyyətlərini diqqət mərkəzinə çəkib. Bu üsyana səbəb olduqlarını kəskin tənqidi ruhda vurğulayıb...

Mütəxəssis oxucuya təqdim edilən tədqiqatımızı burda tamamlamaq olar. Bu tədqiqat *«Fəzlullah Nəiminin iziylə»* adlanır, ancaq məzmununa görə təkcə Fəzlullahla məhdudlaşmır. Onun tarixi taleyi Nəsiminin, Bədrəddin Simavinin taleləri ilə zəruri bir vəhdətdə olub. Fəzlullahla bağlı qaynaqlardan əxz etdiyimiz məlumatlar onun haqqında tarixi gerçəyi üzə çıxarır. Eyni zamanda Nəsimi taleyinin açılmamış müəmmalarını yenidən açır. Araşdırmada açığa çıxarılan tarixi həqiqətlər bu sahədə mövcud təsəvvürləri tamamilə təzələyir. Bu mövzunun gələcək tədqiqində müxtəlif rəvayətləri, uydurmaları aradan qaldırmağa elmi zəmin yaradır.

UNUDULMAZ GƏNCƏ SƏFƏRİ

Xəzər Universiteti Tələbə Məclisinin idarə heyətinin üzvləri Gəncə şəhərində olublar



2008-ci il fevral ayının 3-də Xəzər Universiteti Tələbə Məclisinin idarə heyətinin üzvləri ilə birlikdə dahi Nizaminin vətəni qədim Gəncəyə yola düşdük. Məqsədimiz əlverişli cografi şəraitə malik olan bu içtimai-iqtisadi və mədəni mərkəzdə qış tətilini səmərəli keçirtmək idi. 2501 yaşına qədəm qoyan Gəncənin qonaqpərvər əhalisi bizi böyük səmimiyyət və sevinc hissləri ilə qarşıladı. Azərbaycanın ikinci böyük şəhərində keçirdiyimiz 3 gün ərzində özümüzü doğma evimizdəki kimi hiss etdik.

Gəncə şəhərindəki bir neçə orta məktəbdə olduq, xüsusilə 34 nömrəli məktəbin direktoru Yuris Xəlilovla danışıqlar apararaq yaxın gələcəkdə bir neçə birgə layihə həyata keçirmək barədə razılığa gəldik. Layihələrimizin tərkibinə "Uşaq hüquqlarının qorunması", "QİÇS-ə qarşı mübarizə" və s. kimi məsələlər də daxildir.

Biz Gəncə şəhər ali və orta ixtisas təhsili müəssisələrinin Tələbə Gənclər Təşkilatının fəalları ilə görüşdük. Görüşü Gəncə şəhəri Gənclər və İdman Baş İdarəsinin Gənclər sektorunun rəisi Elçin Veysov və Xəzər Universiteti Tələbə Məclisinin prezidenti Sərxan Məmmədov açıq elan etdilər. Görüş zamanı gələcək planlarımız və əməkdaşlığımız haqqında mühüm müzakirələr apardıq.

Daha sonra Tələbə Məclisinin Layihələrlə iş departamentinin rəhbəri İsgəndər Ağayev Gəncədə keçirməyi planlaşdırdığı treyninqlərlən, debat turnirlərindən söz açdı.

Tələbə Məclisi İdarə Heyətinin üzvü Lamiyə Tahirova söhbəti davam etdirərək orta məktəblərdə internet vasitəsi ilə hüquqi dərslərin keçirilməsi haqqında layihələrdən danışdı.

Tələbə Gənclər Təşkilatının fəalları ilə mart ayının sonu – aprel ayının əvvəllərində layihələrin bir qisminin reallaşdırılması şərti ilə ayrıldıq.

Gəncədə olduğumuz müddətdə bəzi tarixi yerləri də gəzdik. İlk gün Cavad xan türbəsini ziyarət etdik. Məlum olduğu kimi, Gəncənin sonuncu xanı Cavad xan 1786-cı ildən 1804-cü ilə qədər xanlığı idarə edib. General L.Sisianovun başçılığı ilə uzun müddət şəhəri mühasirədə



saxlayan rus işğalçı qoşunları ilə 1804-cü il yanvarın 3-dən 4-nə keçən gecə aparılan qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olub.

Daha sonra ümummilli liderimiz Heyder Əliyevin xatirə muzeyini gəzdik.

Şah Abbas Məscidini ziyarətimiz də maraqlı oldu. Cümə məscidi kimi tanınan bu məscid 1606-cı ildə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında inşa edilmişdir. 1776-cı ildə binaya əlavə olaraq qoşa minarə tikilmişdir. Hazırda məscid dini ibadətgah kimi fəaliyyət göstərir.

Məscidin yaxınlığında yerləşən Çökək Hamamın layihə müəllifi də Şeyx Bahəddin Məhəmməd Amildir. Ölkə əhəmiyyətli bu tarixi abidədən hazırda Dekorativ Sənət Mərkəzi kimi istifadə olunur.

Oradan Xan bağına getdik. Bizə verilən məlumatlara görə, bu bağ "Xan bağı" adlandırılsa da, əslində "Sərdar bağı"dır. Sərdar bağı 1847-ci ildə çarın Qafqazdakı canişini ("sərdarı") knyaz M.S.Voronsovun təşəbbüsü ilə salındığı üçün bu adı almışdır. Gəncədə tarixən xanların istirahət guşəsi kimi mövcud olmuş Xan bağı rus işğalından sonra ləğv edilmiş, oradakı ağacların bir qismi isə Sərdar bağına köçürülmüşdür. Bağ hazırda gəncəlilərin əsas istirahət guşələrindəndir.

Buradan da sonra Azərbaycan Xalq Cumhuriyyətinin binasına getdik. 1897-ci ildə tikilmiş bu binada əvvəllər şəhər bələdiyyə idarəsi yerləşib. 1918-ci ildən Xalq Cümhuriyyəti elan edilərkən milli hökumət bir neçə ay burada fəaliyyət göstərib. Hazırda muzey kimi qorunub saxlanılan bina Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının istifadəsindədir. Biz Kənd Təsərrüfatı Akademiyasının Tələbə Gənclər Təşkilatının sədri Nəməddin Musayevin dəvəti ilə bu binanı da gəzdik.

Sonra Gəncə şəhər Tələbə Gənclər Təşkilatının fəalları və Elçin Veysovun başçılığı ilə Tarix Diyarşünaslıq Muzeyində olduq.

Daha sonra İmamzadə türbəsinə getdik. Bu türbə Göy İmam adı ilə tanınır. Türbə VIII əsrdə tikilmişdir. Həmin tarix türbədəki bir kitabənin üzərində də yazılmışdır. 1878-ci ildə general İsrafil bəy Yadigarzadə tərəfindən təmir və bərpa edilmişdir. Hazırda dini mərasimlər ke-





çirilməsi üçün istifadə olunur. İmamzadə türbəsi müsəlmanların mötəbər və müqəddəs bir ziyarətgah yeri kimi də məşhurdur.

Gəncəyə gedib dahi Nizaminin məqbərəsini ziyarət etməmək qəbahət olardı. Odur ki, sonuncu gün Elçin müəllim və Amil müəllimlə birlikdə Nizaminin məqbərəsini ziyarət etdik. Türbənin tarixi haqqında məlumat aldıq. Öyrəndik ki, ilk türbənin tikintisi XIII-XIV əsrlərə aid edilir. Nizaminin türbəsi vaxtilə Mirzə Adıgözəl bəy Qarabağı və Əsgərağa Gorani tərəfindən təmir etdirilmişdir. 1947-ci ildə şairin qəbri üzərində yeni məqbərə ucaldılmışdır. Şəhərin girəcəyində yerləşən məqbərə 1990-1991-ci illərdə yenidən qurulmuş, qədim arxitektura ənənələri saxlanılmaqla müasirləşdirilmişdir. Hazırda məqbərənin mərkəzi xiyabanının uzunluğu 125 m, eni 40 m-dir. Məqbərənin hündürlüyü isə 20,9 m-dir. Məqbərənin ətrafındakı sahədə şairin "Xəmsə"sinin rəmzi kimi 5 iri fəvvarə tikilmişdir. Azərbaycanın adını dünyada şöhrətləndirmiş ustad şairimizə Tanrıdan rəhmət dilədik...

...Beləcə, unudulmaz Gəncə səfərimiz sona yetdi. Xatirələrimiz isə lap çoxdur...

Sərxan Məmmədov,
Xəzər Universiteti
Tələbə Məclisinin prezidenti

ARXEOLOJİ QAZINTILAR APARILACAQMI?!

Arxeoloji qazıntı aparılması nəzərdə tutulan qədim Gəncə ərazisində poladtökmə zavodunun tikintisi narazılığa səbəb olub

Gəncə şəhəri yaxınlığında "Daşkəsən filiz saflaşdırma" Açıq Tipli Səhmdar Cəmiyyətinin sifarişi ilə poladəritmə zavodu tikilir. APA-nın məlumatına görə, tikinti işləri aparılan ərazi orta əsrlər Gəncə şəhərinin tərkibinə daxil olan ərazidir. 35-40 hektar ərazini əhatə edən tikinti sahəsi qədim Gəncənin qala divarlarından 2 km aralıdadır.

Gəncənin 2500 illik tarixi olması faktını təsdiqləmək üçün bu ərazidə arxeoloji qazıntıların aparılması son dərəcə vacibdir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Gəncə arxeoloji ekspedisiyanın rəhbəri, arxeoloq Arif Məmmədov verdiyi açıqlamada həmin tarixi ərazidə poladtökmə zavodunun tikintisinin dayandırılmasının zəruri olduğunu deyib: "Burada aparılan tikinti işləri dayandırılmalı və ərazidə arxeoloji tədqiqat işləri aparılmalıdır. Arxeoloqlar öz sözünü deyəndən sonra ərazidə tikinti işləri davam etdirilə bilər. Amma arxeoloji qazıntı aparılmadan burada tikinti aparıla bilməz".

Arif Məmmədov Gəncənin tarixinin çox qə-



dimlərə çıxdığını təsdiqləyən faktlar olduğunu deyib: "Xanlarda kükürd, Daşkəsən və Gədəbəydə filiz, Goranboyda əqiq yataqlarının, Samuxda zəngin meşə materiallarının olması Gəncənin qədim yaşayış məskəni olmasını bir daha təsdiqləyir. Gəncə ərazisində bu vaxta qədər aparılmış arxeoloji tapıntılar, buranın qədim insan məskəni olduğunu sübut edir. Ərazidə ilk arxeoloji işlər ötən əsrin əvvəllərində aparılıb ki, bu işlər nəticəsində Gəncənin ən qədim dövrünə aid olan maddi mədəniyyət nümunələri əldə edilib. Ancaq bu maddi mədəniyyət nümunələri əsasən qəbir abidələrindən ibarətdir".

Arif Məmmədov Gəncə şəhərinin salınması haqqında müxtəlif məlumat olduğunu deyib: "Bəzi mənbələrə görə, Gəncə şəhərinin əsası 859-cu ildə qoyulub, bəzi mənbələrdə bu tarix 861-ci olaraq göstərilir. Bütün bu iddialar arxeoloji araşdırmalarla təsdiq olunmalıdır. Gəncə şəhərinin salındığı yer dəqiq məlum olmasa da, təxminən Alaxançallı və Zivələk çaylarının qovuşduğu yerdə, indiki Zurnabad kəndinin ərazisindəki meşədə "Qala" deyilən bir yer var. Mən antik Gəncənin orada yerləşdiyini güman edirəm. Orta əsrlər Gəncəsinin isə Gəncə çayının yerləşdiyi ərazidə olduğu güman edilir. Bu fikirlərin təsdiqlənməsi üçün Gəncədə ciddi arxeoloji qazıntılar aparılmalıdır. Bu qazıntılar ümumilikdə Azərbaycan üçün, Gəncə üçün lazımdır".

Arif Məmmədov bu gün arxeoloji ekspedisiyalar zamanı tapılan maddi mədəniyyət nümunələrinin əsasən üst təbəqənin materialları olduğunu deyib: "Bu təbəqə materialları XIV-XV əsrlərə aid olan materiallardır. Hazırda həmin ərazidə buldozerlərlə qazma işləri aparıldığına görə, maddi mədəniyyət nümunələri bir birinə qarışır, təbəqələr hamısı bir-birinə qarışır. Arxeoloji söz, iddia ancaq təbəqə materialları əsasında deyilir. Bu səbəbdən tariximiz üçün son dərəcə əhəmiyyətli olan bu ərazidə tikinti işləri dayandırılmalı, burada arxeoloji tədqiqat işləri aparılmalıdır".

Arif Məmmədov Gəncədə arxeoloji qazıntılar aparmaqla bağlı ciddi problemlərlə üzləşdiklərini deyib: "Ən böyük problemimiz odur ki, Gəncə ətrafında yerləşən Əzgilli kəndində arxeoloji tədqiqat işi aparmağa icazə vermirlər. Bundan başqa, Gəncədə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji bazası var. Biz bölgəyə gələrkən həmin bazada qalmalı və tədqiqat işləri aparmalıyıq. Amma bazanın ərazisi Kəlbəcər rayonundan olan məcburi köçkünlər tərəfindən zəbt edilib. Halbuki Tərtər rayonu ərazisində bu köçkünlər üçün şərait yaradılıb. Gəncə Şəhər İcra Hakimiyyəti köçkünləri dövlətin ayırdığı yerə köçürmək üçün bizə köməklik etməlidir ki, biz orada qalaq və tədqiqat işlərimizi davam etdirək. Bizim araşdırdığımız elə materiallardır ki, onları aparıb mehmanxanaların bir küncünə tökmək olmaz. Bəzən elə maddi mədəniyyət nümunələri olur ki, onlar nə soyuğa, nə də istiyə dözmür".

Gəncə Tarix Mədəniyyət Qoruğunun direktoru Fariz Tağıyev isə qədim Gəncənin ərazisində poladəritmə zavodunun tikintisinin "Daşkəsən Filiz Saflaşdırma" Açıq Tipli Səhmdar Cəmiyyəti tərəfindən aparıldığını deyib: "Sözü gedən bu ərazi Gəncə şəhər Tarix və Mədəniyyət İdarəsinin ərazisi yox, XI-XII əsrlərə aid olan qədim Gəncənin ərazisidir. Bu ərazidə tikinti aparmaq üçün mütləq Gəncə Şəhər İcra Hakimiyyətinin icazəsi olmalıdır. Yəqin belə icazə verilib ki, burada tikinti aparılır. Yaradılmış komissiya ərazıyə baxış keçirib. Burada kifayət qədər qədim dövrə aid eksponatlar tapılıb. Bu, komissiyanın rəyində öz əksini tapıb. Azərbaycan Milli Elmlər Akademiyasına bu haqda məlumat veriləcək, onlar yəqin ki, müvafiq tədbir görəcəklər. Burada tikinti aparıla-aparıla da arxeqloji qazıntı işləri aparıla bilər. Hazırda bu ərazidə tikinti işləri davam etdirilir. Əlbəttə, qazıntı gedən ərazidə hər hansı tarixi abidə aşkar olunarsa, ona zərər verilə bilər, dağıdıla bilər. Amma onu da qeyd edim ki, bu ərazidə tarixi abidə yoxdur, sadəcə, torpağın üst qatında olan eksponatlar var".

Maraqlıdır

2 milyonluq Bakı saatı

Nobel qardaşları tərəfindən ötən əsrin əvvələrində sifariş edilən saat İsveçdə satılıb

Boz qranitdən hazırlanmış saatın korpusunda Bakının Suraxanı rayonunda yerləşən və atəşpərəstlərin etiqad etdiyi Atəşgah məbədi təsvir olunub. Korpusun hər dörd küncündə rodonitdən hazırlanmış məşəl var. Məbədin üzərində gümüşü svastikalar həkk olunub. Saatın aşağı hissəsindəki gümüşü lövhəcikdə Lüdviq (1831-1888) və Emmanuil (1852-1932) Nobellərin portretləri, habelə Abşeron yarımadasının xəritəsi təsvir olunub.



İsveçin paytaxtı Stokholm şəhərində 20-ci əsrin əvvəllərində Nobel qardaşları tərəfindən Bakıda sifariş edilmiş stolüstü yubiley saatı hərraca çıxarılıb. Bukovski beynəlxalq auksionunda satışa çıxarılan həmin saat ilkin qiymətindən iki dəfə baha, yəni 2.058.000 avroya (19.100.000 İsveç kronu) satılıb. Saatı alan şəxs haqqında məlumat verilmir. Çünki auksion qaydalarına görə, ancaq alıcının razılığı olduqda onun haqqında məlumat ictimaiyyətə açıqlanır.

Saat Sankt Peterburqda Karl Faberje firması tərəfindən Nobel qardaşlarının sifarişi əsasında 1906-cı ildə hazırlanıb. Boz qranitdən hazırlanmış saatın korpusunda Bakının Suraxanı rayonunda yerləşən və atəşpərəstlərin etiqad etdiyi Atəşgah məbədi təsvir olunub.

Korpusun hər dörd küncündə rodonitdən hazırlanmış məşəl var. Məbədin üzərində gümüşü svastikalar həkk olunub.

Saatın aşağı hissəsindəki gümüşü lövhəcikdə Lüdviq (1831-1888) və Emmanuil (1852-1932) Nobellərin portretləri, habelə Abşeron yarımadasının xəritəsi təsvir olunub.

Lövhənin üzərində rus dilində "1879-1906-cı illərdə Nobel qardaşları Yoldaşlığı tərəfindən milyard pud xam neftin hasilatı şərəfinə" ("В памяти добычи миллиарда пудов сырой нефти Товариществом Бр. Нобель 1879-1906") sözləri yazılıb.

Xəritədə Bakı şəhəri yaxınlığında "Nobel qardaşlarının zavodu" qeyd olunub.

Aşağı sağ küncdə Nobel qardaşlarının iri neft yataqları yerləşən Çeleken adasının xəritəsi təsvir olunub.

Sol aşağı küncündə isə konstruksiyası Lüdviq Nobel tərəfindən verilmiş, İsveçin Motala şəhərində yerləşən Mexaniki emalatxanada hazırlanmış, 1878-ci ildə Norrçepinq şəhərində suya buraxılmış və ən nəhayət dünyada ilk neft tankeri olan "Zərdüşt" gəmisi təsvir olunub.

Saatın arxa hissəsinə daha bir gümüşü lövhə vurulub. Lövhədə səcdəgahın yaxınlığında əlində çıraq tutmuş alleqorik qadın təsvir olunub. Lövhədə həmçinin Balaxanıda olan neft buruqları və neft daşıyan dəvə karvanı həkk olunub. Uzaqda isə Atəşgahın qüllələsində yanan alov görünür.

Fransız saat mexanizminə malik saatda 2 zavod açarı mövcuddur. Saat hər yarım və bir saatdan bir zəng vurur. Saatın hündürlüyü 65 sm, eni isə 44,5 sm-dir.

Sərgiyə eyni zamanda üzərində rusca "Товарищества Нефтяного Производства бр.Нобелеь" sözləri yazılmış 2 ədəd fotoşəkilli albom çıxarılıb. Albomda Nobel qardaşlarının şirkətinin işçi heyəti ilə yanaşı qurğular da var. Albomda köhnə Bakıya aid bir sıra şəkillərə də rast gəlmək olar.

Albomun ilkin qiyməti 530 avro (5000 kron) olsa da, o, 4200 avroya (38000 İsveç kronu) satılıb.

Problem

DƏYİŞƏN DÖVRÜMÜZÜN DƏYİŞƏN KİŞİLƏRİ

KİŞİLƏR NİYƏ BELƏ DƏYİŞİBLƏR VƏ ONLAR NƏ İSTƏYİRLƏR?

Debatdan öncə nizamlanmış sualdansa, nizamlanmadan öncə debat olunan sual daha yaxşıdır.
Cozef Coubert (1754-1824)



Abstrakt: bu gün həm ictimai, həm də fərdi debatın bir nömrəli məsələsinə çevrilən «*kişilər niyə belə dəyişiblər və onlar nə istəyirlər?*» sualının qoyuluşunun özündə bir yanlışlıq var. Nə baş verdiyini tam obyektiv anlamaqdan ötrü təkcə kişilərdən bəhs etmək məsələnin anlaşılmasına əngəlliklər törədə bilər.

Bu problem maskulunluq/femininlik, seksual normallıq və anormallıq, intim həyatın təbiətinin tam dəyişməsinin bir hissəsi kimi anlaşılmalıdır. Kişilərin çeşidli yaşam tərzini aydınlaşdırmadan və buna rəğmən kişi/qadın radikal dixotomiyasının dərinləşməsi səbəblərini nəzərə almadan, masklunluq məsələsi ətrafında krizisli mühakimələrin əsil qayəsini təhlil etmək müşkül məsələdir. Gender və seksual münasibətlərin iki qismə bölünməsi tarixi uydurma kimi görünə bilər və hətta bu maskulunluğun əsil mahiyyətini aydınlaşdırılması məsələsinə qorxu, qəzəb, istək qarışıq bir qeyri aydınlıq da gətirə bilər, amma bu gün şahidi olduğumuz sosial-mədəni dəyişikliklər gender və seksuallıq əlaqələrinin yenidən öyrənilib araşdırılmasına imkan yaradır.

İnsan heç də bir çoxlarının iddia etdiyi kimi mücərrəd varlıq deyildir. O, konkret zamanın və mühitin övladıdır. Hər bir fərdin, şəxsin həyatında öz dövrünün "izləri" yaşanır. Eləcə də məhz sosial mühit şəxsiyyəti, bütövlükdə isə, cəmiyyətdə baş verən ictimai münasibətləri doğurur. Məhz ictimai münasibətlərin təsiri ilə müəyyən dövr daxilində şəxsiyyətdə cəmiyyətin bütün üzvlərinə xas olan ümumi cəhətlər və mənəvi keyfiyyətlər, ümumi davranış normaları formalaşır və inkişaf edir. Lakin bir çox hallarda (hətta, elmi dairələrdə belə) əxlaqi prinsiplərin, o cümlədən davranışların ətraf aləmlə, "mövcud dünya" ilə heç bir bağlılığa malik olmadığı söylənilir. Təbii ki, insan əxlaqı, bütövlükdə insan həyatı ilə bağlı tədqiqatlar get-gedə yeni məcraya düşür. Hətta, Y.Habermasın dediyi kimi, etik pozisiya baxımından əxlaqın əsasları yenidən hazırlanmalıdır.

XX əsrin sonuna yaxın bütün dünyada baş verən kəskin dönüş mərhələləri, mövcud superdövlətlərdən birinin – SSRI-nin çökməsi, həmin məkanda yeni iqtisadi-siyasi formasiyanın yaranması cəmiyyətin bütün sahələrinə öz təsirini göstərmişdir. Azərbaycan da baş verən sosial-siyasi dəyişikliklərdən kənarda qalmamışdır. SSRI-nin süqutundan sonrakı mərhələ elmi ədəbiyyatlarda bir qayda olaraq "keçid mərhələsi" kimi qiymətləndirilir. Bu isə heç də təsadüfi deyildir. Həqiqətən, cəmiyyət bir siyasi-iqtisadi platformadan başqasına keçir. Yeni dövr özü ilə yeni prinsip, yeni qanun, yeni təfəkkür tərzi, yeni davranış normaları gətirir. Əlbəttə, heç da adamların hamısı yeni həyat tərzinə alışa bilmir. Əslində belə bir transformasiya üçün hazır "mexaniki model" də mövcud deyildir. Hər cür yeniliyin insan həyatına daxil olmasını həmişə ağrılar və çətinliklər müşaiyət etmişdir. Bu, indi də bu cürdür. Keçid dövrünü yaşayan insanların düşüncəsi mövcud mühitlə uzlaşmağa heç də bütün vaxt və hallarda qadir deyil. Onlar ənənəvi adət-ənənə, rəftar və davranış qaydalırını avtomatik olaraq dəyişə bilmirlər. Xüsusən, kişilərin yeni sosial mühitə

uyğunlaşmasında köklü problemlər yaranır. Həmin mərhələdə etik normaların ənənəvi "qəliblərə" uyğun gəlməməsi də müşahidə olunur. Belə olan tərzdə qarşıya çoxlu suallar çıxır: gələcək həyatı necə yaşamalı? Hansı əxlaq və davranış normalarını qoruyub saxlamalı? Qərbə üz tutmalı, yoxsa Şərqə? Bu suallara cavab vermək heç də asan məsələ deyildir.

Bir zamanlar S.Freydin məşhur bir sualı ətrafında qızğın mübahisələr gedirdi: qadınlar nə istəyirlər? O və digərləri bu məşhur sualı öz dövründə qismən cavablandırmağa da çalışmışdılar, amma nədənsə onun ikinci «kişilər nə istəyirlər?» sualı nə Freydin dövründə, nə də ondan sonrakı dövrlərdə birinci sual qədər qabardılmadı. Sual önəmlimi deyildi yoxsa susmaq daha önəmli idi? O bu sualın cavabını aydınlaşdırmamış dünyasını dəyişə də, illər keçəndən sonra bu sual yenidən gündəmə gəldi. O dövrdən uzun bir zaman keçsə belə, nə birinci, nə də ikinci sual bu gün öz aktuallığını itirməyib. Birinci suala cavab axtaran həm kişi, həm də qadın cisinin müxtəlif nəsilləri çeşid-çeşid cavablar aldılar, amma bu cavablar nə kişiləri qane elədi, nə də qadınları, ikinci sual, birinci sual qədər cavblandırılmasa da, nədənsə bu gün bu sual ətrafında nə ictimai debatlar, nə şəxsi reylər səngimək bilmir, tərəddüdlər günbəgün artır. Bəli indi mətbuatda da, məişətdə də ən çox müzakirə olunan məsələ bugünkü kişilərdəir. Nə baş verib? Kişilər lənətləniblər? Gələcək qadınlarındır? Əcaba, kişilərin tale çarxını fələk əyib?

Saysız-hesabsız tədqiqatçılar bu sual ətrafında öz mövqelrini bildirmişlər, məsələn, siyasətçilər oğlanların təhsilinin səviyyəsindən, zorakılığa meyilli olmalarından, gənclərin «öhdəliklərindən asan vaz keçmələrindən» bərk narahatdırlar. Konservativ əxlaq nəzəriyyəçiləri ənənələrin, xüsusi ilə də, nigahla bağlı ənənələrin aşağılanmasından, qeyri sabit hala düşməsindən qorxuya düşüblər və sairə. Amma nə fayda, sonda yenə də əxlaqsızlıqla bağlı bütün durumların hesabını qadınlardan sorurlar. Bu günkü əxlaqsıslığın tək qınaq yeri qadınlarmıdır, yoxsa əks cinsin də burada bir suçu var? Nəyə görə siz-biz bir cinsi (qadınları) daha sərt mühakimə edirik, digərinin (kişilərin) hər günahının səbəbini isə, onlarda deyil, şeytanda axtarmağa çalışırıq (çox vaxt qadın elə şeytanın ekvivalenti kimi nəzərdə tutulur). Düzdür heç kəs inkar etmir ki, qadınlar da əvvəlki qadınlır deyillər, bəs kişilər? Niyə biz bu gün belə tez-tez yana-yana deyirik, eh kişilər var idi... Nə tip kişilərin həsrətini çəkirik? Əminsiniz ki, o kişilər bu gün yaşasaydılar dəyişməyəcəkdilər? Bəlkə elə bütün dövrlərin kişiləri də, qadınları da zəmanəsinin kişiləri-qadınları olurlar? Bəlkə məsələyə başqa prizmadan nəzər salaq? Hansı cinsin cəmiyyətin deqradasiyasına təsir etmə gücü, imkanı daha çoxdur, kişilərin yoxsa qadınların? Beynimdən ümman suallar keçir, hamısını yazsam oxucularımın beynini cox yüklərəm. Elə isə gəlin bu məsələni aramla cözək, sualların cavablarını nizamlı verməyə çalışaq. Məqalənin əsas qayəsi kişilər olsa da, mən bir genderşünas kimi, gender balansını saxlamağda məsuliyyətli olduğumu hər zaman yadda saxlamağa borclu olduğumdan, istər-istəməz qadınlarsız məsələnin tədqiqi obyektivikdən kənar olur. Ümumiyyətlə, mən bu məqaləni yazmağa başlayanda özümə söz verdm ki, kişi-qadın söhbətində neytral mövqe nümayiş etdirməyə çalışım, necə deyərlər «*value-free research» (dəyərlərdən azad, obyektiv tədqiqat)* nümayiş etdirim və digər tədqiqatçıların mövqelərini siz oxucuların nəzərinə çatdırım, şərhi sizlərin öhdəsinə buraxım. Dəyərli oxucular, mən bu sözümün üstündə nə qədər dayana biləcəyəm bilmirəm, amma yenə çalışıcağam ki, məqaləmdə əsasən kişilərdən bəhs edim, qadınlardan çox yazırlar və heç kəs etiraz etmir ki, onlar dəyişməyiblər.

Qadınlardan söz açmışkən, bir az əvvəl içki içən, siqaret çəkən, düşkün həyat sürən, yüngültəbiət qadınları barmaqla saymaq olardı. Amma indi, acınacaqlı haldır ki, az da olsa, zorakılığın, cinayətin elə bir növün tapmazsan ki, orada qadın cinsindən nümayəndə olmasın.

Bu gün qınaq obyekti olan qadınlar bəlkə zamanın tələbi, cəmiyyətin sifarişidir? Heç kəsə sirr deyil ki, əxlaqi normal, ağıllı, elmli, ciddi nizam-intizamlı qızların evdə qarımaq ehtimalı, «müasir» görkəmli, «müasir» davranışlı, yüngültəbiətli qızlardın daha çoxdur. Nə isə, bu məsələnin dərinliklərinə baş vursaq, o zaman kişilər yenə yaddan çıxacaq.

Sözsüz, cəmiyyətin deqradasiyasında təkcə bir cinsi ittiham etmək ədalətsizlik olardı, bu məsələdə hər iki cins məsuliyyət daşıyır. Elə bu səbəbdən də, maskulunluqla bağlı problemlərin həlli, femininliklə bağlı problemlərin həlli olmadan mümkün deyil. Ümumiyyətlə, maskulunluq/femininlikdən bəhs edirkən, biz məhz müəyyən bir şəxs və sosial xarakterdən bəhs etmiş oluruq. Gender tədqiqatının iki mühüm obyektindən biri olan kişilər haqqında ziddiyyətli olsa da, araşdırmalar aparılır. Bəzi tədqiqatçılar bugünkü kişi stilini təyin etməyə cəhd göstərirlər və qeyd edirlər ki, dövrümüzün kişiləri müasir sosial şərtlərlə uzlaşmırlar və elə bu səbəbdən də onlar qadınlara nisbətən daha çox əziyyət çəkirlər. Buna əsas səbəb onların əllərindəki hökmran mövqelrindən əl çəkmək istəməmək iddialarıdır. Məncə, müasir tədqiqatçıların qarşısında duran əsas önəmli sual «kişi krizisi»nin səbəbini araşdırmaq və bunu şərh etmək

olmalıdır.

Genderin bir sinfi olan kişilər sosial qrup kimi zamanın tələbinə uyğun gəlmirlər. Əsil kişi necə olmalıdır, onlar dəyişən sosial şəraitə necə uyğunlaşmalıdır və bundan ötrü hansı addımları atılmalıdır? Kişilər arxayamı baxmalı, bu günlərinimi gözdən keçirməli, yoxsa gələcəyə necə addım atmaları barədə düşünməlidirlər? Adətləri əldə saxlamağa mane olan qlobal etikadanmı ehtiyatlanmalıdırlar?

Hər kəsə məlumdur ki, xalqın mentalitetinə zidd olan yeni "adətlərin" həyat vəsiqəsi almasında, habelə ailə münasibətlərində kommunikasiyaların, KIV-in, xüsusi ilə də internetin, tele-radionun rolu daha mühümdür. Göstərilən xarici kinofilmlər ailə üzvlərinin, insanların əxlaqına bu və ya digər aspektdə təsir göstərir. Nəticədə əgər bir tərəfdən yeni davranış normaları «ixrac» olunursa, digər tərəfdən adekvat mənəvi prinsiplər «idxal» olunur.

Məhz elə bu səbəbdən də çox vaxt itirilən dəyərlərimizin səbəbini qloballaşma ilə əlaqələndiririk. Əlbəttə burada bir gerçəklik mövcuddur. İnkişafın əsas parametrlərindən biri olan qloballaşmaya inteqrasiya həyatımızı müsbət istiqamətdə dəyişdirsə də, müəyyən universal dəyərlərə yiyələnsək də, qloballaşma bizi bəzən istəmədiyimiz surprizlərlə də üzləşdirir və bunun qəbul edilməsi insan üçün qaçılmaz olur və elə bu üzdən də qoballaşan dünyanın qlobal problemləri bizim cəmiyyətə də təsirsiz qalmır. Mənə elə gəlir ki, insan deqradasiyası problemi qlobal yanaşma tələb edən məsələdir, çünki insan deqradasiyası təkcə bizim cəmiyyətin problemi deyil bu, bu gün bütün mədəiyyətlərdə, cəmiyyətlərdə baş verən qlobal və aktual bir məsələdir.

Bəzi tədqiqatçılara görə isə, bu ona görə baş verib ki, kişi heqemonluğu sarsılıb, insan sivilizasiyasında kişi-qadın rollarının təbiiliyinə xələl gətirilib və elə bu səbəbdən kişilər ənənəvi rollarının bərpası və sabitliyi uğrunda mübarizə aparmalı, kişi deqradasyasına son qoyulmalı, cəmiyyəti bir az əvvəlki sakit, etibarlı keçmişə aparmaqdan ötrü bir sıra təxirəsalınmaz işlər barədə düşünməlidirlər.

Bu gün tədqiqatçıların (xüsusi ilə də kişi tədqiqatçıların) tədqiqatında önəmli yer tutan mövzular sırasında, kişilərin feminizasiyası və «əsil kişi»lərin yoxa çıxması haqqında yazılara ara-sıra təsadüf edirik və onlar tarixi faktları gündəmə gətirməklə, bu məsələni yeni mustəvidə çözməyə çalışırlar. Məsələn, Dədə Qorqud, Homer qəhrəmanları haqqında yeni-yeni yazılar, Roma imperiyası, ingilislərin restavrasiya dövründəki əsil kişilərin həyatından bəhs edən müasir əsərlər çap etdirilir.

Son zamanlar dövrümüzü «kişi krizisi» dövrü də adlandırırlar. Görəsən bu təşvişə səbəb varmı?

Qadınların həm təşkilatı, həm də ideoloji cəhətdən təşkilatlanmağa göstərdikləri cəhdləri, qadın intellektual səviyyəsi, qadın maraqlarının qrup maraqları şəklində gündəmə gəlməsimi? Bu maraqlar nədir və onlar kimdən müdafiə olmağa cəhd göstərirlər? Ümumiyyətlə, kişi üstünlüyü, qadın asılılığı hansı formada mövcuddur? Qadınlar özlərini kişilərə oxşatmağa başlayıblar və ya onlarla rəqabətə girməyə hazırlaşırlar? Bəlkə kişilər çox qiymətli keyfiyyətlərini itirməkdən təşviş keçirirlər? Bəlkə kişilər adət etdirkləri rahat tarixi yerlərini itirməkdən təlaşlanırlar? Bütün bu sualları müxtəlif prizmalardan çeşidli cavablandırmaq olar.

Müasir Avropa və Amerika sosioloqlarının ehtimalına görə kişi ictimai həyatının üç spesifik faktoru mövcuddur. *Birincisi*, qadınların qrup olaraq qürum imtiyazından az istifadə etdikləri halda, kişilər qrup olaraq bu imtiyazlardan nisbətən daha çox bəhrələnirlər. *İkincisi*, maskulunluğun dar mənada təyinatı kişilərə yüksək status və imtiyazlar vəd etməsinə baxmayaraq, kişilər bunun əvəzini səthi şəxsiyyətlərarası münasibət, pis səhhət, erkən ölümləri ilə acınacaqı şəkildə ödəyirlər.

Üçüncüsü, pariarxat rejimin qeyri bərabərlik toxumundan təkcə qadınlar əziyyət çəkmirlər, heç kişilərin (irqi, sinfi, seksual fərqlərəri nəzərə alsaq) də hamısı bu rejimdən eyni cür bəhrələnmirlər.

Bütün kişi problemərinin və çətinliklərinin mənbəyi olan kişinin cinsi rolu və ona uyğun psixoloqiyanın məhdudlaşdırıması sübut edir ki, seksist stereotipləşmədə təkcə qadınlar deyil, kişilər də, ziyan çəkirlər: Cek Soyer 1970-ci ildə yazırdı ki, «kişi azadlığı, cinsi rola uyğun stereotipi dəf etmək, kişi «həyat tərzi», qadın «həyat tərzi»nə status kimi yenidən baxmağa cəhd göstərməkdir, çünki «əsil kişi» nə sərbəst oyun oynaya, nə sərbəst ağlaya, nə zərif ola, nə də zəif ola bilər, çünki belə keyfiyyətlər «maskulunluq» yox «femininlik»dir. Insan haqqında tam anlayışda etiraf edilir ki, bütün kişilər və qadınların zəif və güclü, aktiv və passivlik potensialına malik olurlar, və bu cəhətləri, istisna olaraq bir cinsə aid etmək düzgün yanaşma olmazdı». Kişiləri bütün bu çətinliklərini aradan qaldırmaq ötrü ən əhəmiyyətli olanı, oğlan uşaqlarının sosializasiyasına yenidən nəzər salıb, müəyyən dəyişikliklər etməkdən ibarətdir, yəni obrazlı desək, onlara ağlamağa icazə verməklə, onların «kişilik»lərinə heç bir xələl gətirmədiyimizi dərk etməliyik.

Söylənilən problemlərlə məşgul olan tədqiqatçıların əksəriyyəti orta sinfin nümayəndələri olduqları üçün, onlar gender bərabərsizliyinin sosial struktur ilə

əlaqəsini ya tam açıqlamağa səy göstərməyiblər, ya da bunu təbii hal kimi qəbul ediblər və elə bunun məntiqi davamı kimi də, müxtəlif kateqoriyalı kişilərin vəziyyəti onlar üçün kölgədə qalıb. Onlar üçün kişi «həyat tərzi»nin dəişdirilməsi, daha çox seçimə imkan verən həyat tərzinə keçid, emosional əlamətlərin biruzə verilməsi və özünü aktivləşdirmək imkanın genişləndirilməsi ilə kifayətlənməkdən ibarətdir.

Talkot Parsonsun təsvir etdiyi kimi, aksent sosial stratifikasiya və gender nizamına deyil, fərdi xüsusiyyətlərə qoyulmalıdır, yəni kişinin real üstünlüyünün təkzibi və ya yetərli qiymətləndirilməməsi, problemin belə tərbiyə olunmaqla əlaqələndirilməsi kişilərə imkan verir ki, onlar həm instrumental, həm də ekspressiv rollarını harmonik şəkildə ifa edə bilsinlər.

Əgər kişilər müasir demokratik hərəkatın üç əsas prinsipini nəzərə alsalar və bu problemlərə liberal yanaşsalar, yəni kişilər kişilərə müsbət münasibət göstərmək, feminist hərəkatı dəstəkləmək və digər fərqli qruplara tolerantlıq nümayiş etdirməklə, onlar daha xoşbəxt və dəyərli həyat yaşama imkanı əldə edərlər.

Ənənəvi maskulunlq özündə bir çox müsbət keyfiyyətləri ehtiva etsə də, bir çox xüsusiyyətləri ilə biz fəxr etsək də, etiraf etməliyik ki, kişilərin bu xüsusiyyətlərin bəzilərindən vaz keçmək zamanı gəlmişdir, çünki onların bəziləri onların əl- qollarını bağlayır, bəziləri fəaliyyətlərini məhdudlaşdırır, hətta bəzi məqamlar onlara ziyan da gətirə bilir. Bu gün kişilər təşkilatlanmış şəkildə bütün bu problemləri həlli istiqamətində müvafiq işlər görməli, əksəriyyət kişilərin üzləşdiyi çətinlikəri dəf etməyə çalışmalıdırlar.

Əslində, kişilərin sosial azadlığı və özünü dəyişdirmə istiqamətində mövcud problemləri ilə mübarizə, yalnız qadınlarla birlikdə mümkündür. Gender stratifikasiyası kişilərin üstünlüyü ilə müşaidə olunan bir sistemdir. Bu sistemdə kişilər qrup olaraq qadınları sıxışdırırlar. Təbii, kişilərin özləri dərk etməlidirlər ki, **sosial bərabərsizliklə mübarizənin özü, elə kişi müdafiəsinin bir formasıdır.**

Kişiəri şərti olaraq, iki, «əsil» kişi, yəni daha güclü və aqressiv-maço kişi qisminə və yumşaq, kişi stereotipinə yəni, nə cüssəcə, nə də psixoloжi cəhətdən «əsil» kişiliyə uyuşmayan qismə bölmək olar. İkinci qisim kişilər daha çox çətinliklərə məruz qalırlar. Elə çox zaman kişi probleminə maraq da şəxsi çətinliklərlə stimullaşır (atanın olmaması, oğlanların tayтuşları arasında populyar ola bilməməsi, uğursuz izdivac, atalıq-valideynlik çətinlikləri ilə üzləşmə və sairə). Belə kişilərin əksəriyyəti bunun psixoloжi kompensasiyasını ictimai-siyasi fəaliyyətləri ilə bərpa etməyə çalışırlar.

Adi kişilərin arasında maskulunluqla bağlı problemlərə maraq elə də yüksək deyil. Amrikanın bir neçə universitetində «Kişilər və maskulunluq», «Kişi araşdırmaları» kimi kurslar tədris edilir. Fənnin adına nəzər salanda, məntiqlə bu kursu seçən tələbələrin əksəriyyətinin, məhz kişi cinsinin nümayəndələrinin olacağı ehtimal edilsə də, amma əksinə 80-90% kurs dinləyiciləri elə qadın cinsinin nümayəndələri olurlar. Bu kişillər də ya seksual azlıq, ya da etnik azlıq nümayəndələrini təmsil edirlər. Məsələ onda deyil ki, kişilərin problemi yoxdur, məsələ ondadır ki, kişilər problemlərini etiraf etməyə çox vaxt utanırlar.

Dünyada müxtəlif demokratik və qeyr-demokratik tendensayalar mövcuddur və bu tendensayalar sosial-ictimai mühitdə müxtəlif üsullarla təzahür edirlər. Məsələn, konservativ-mühafizəkar kişi hərəkatının əsas kütləsinin başlıca məqsədi kişi privileqiyasını saxlamaq və dirçəltməkdirsə, U. Farrel, H. Holdberq və başqa Amerika ideoloqlarının fikrincə «Kişi hüquqları müdafiəsi» *(The Men's Rights Movement)* hərəkatında ən təhlükə kəsb edən feminizm hərəkatı və onun artan təsiridir.

1990-cı illərin əvvəllərində «feminizasiya» və «homoseksuallığ»a qarşı kəskin mübarizə aparan «Etibarlı söz adamları» *(Promise Keepers)* hərəkatının yaradıcısı, Kolorod Universitetinin keçmiş futbol məşqçisi Bill MakArtni iddia edir ki, kişilər öz yaranışına və xarici görünüşünə görə Allaha bənzədiklərinə görə, əbədi qadınlardan üstündürlər. Bu qeyri-şərtsiz qəbul olunmalıdır. Bill MakArtniyə görə qadın-kişi bərabərliyi prinsipi ənənəvi ailə dəyərlərinə xələl gətirir və cəmiyyətdə disorqanizasiyaya səbəb olur. Kişilər hər yerdə hər zaman aparıcı olmalıdırlar və liderlik vəzifəsi onların alın yazılarıdır.

Bu hərəkatın tərəfkeşlərinin əsas tənqid hədəfi sərxoşluq, narkamaniya, seksual zorakılıqdır, onlar kişiləri «evlərinə qayıtmağ»a, sədaqətli ər, bacarıqlı işçi, etibarlı və qayğıkeş ailə başçısı və əsil «xristian centlməni» olmağa çağırırlar: «Xanımına, ailənə, uşaqlarına verdiyin sözünün üstündə dur, ümumiyyətlə, sözünün ağası ol!»

Maraqlısı budur ki, bu konservativ hərəkatın müdafiəsində kişilərdən savayı qadınlar da dururlar və hesab edirlər ki, bununla da ailə dəyərlərini müdafiə etmiş olurlar.

Bu gün çoxsaylı siyasi-ideoloжi pozisiyalara rast gəlmək olar. Belə hərəkatların təəssüf ki, real təşkilatı-siyasi gücü görünmür. Maskulunluq krizisinin mübahisələri zamanı adi refleksdən çox, emosiya və ideoloqiya müşahidə olunur. Sosial aktiv kişilər özlərini realizə etmək üçün başqa kanallar axtarıb tapırlar. Mövzunun tətbiqi aspektləri-kişi sağlamlığı,

seksuallıq, atalığın pedaqoqikası və sairə məsələlər, gündəlik mətbuatda geniş işıqlandırıldığı üçün, kişilərin əksəriyyəti bu tip problemlərə laqeyd yanaşırlar.

Gender prosesində kişilərin cırlaşması və deqradasiyası mühüm məsələ olaraq qalır. Belə hallar qapalı mühitlər, məs, kiçik şəhərlər, kəndlər, yəni işsizlik daha çox mövcud olan mühitlər üçün daha xarakterikdir. Bu kimi mühitlərdə həm içkiyə qurşananlar, həm də ondan vaz keçənlər üçün deqradasiya labüddür. İşsizlikdən depressiyaya düşən kişilər mövcud durumdan daha çox əziyyət çəkməli olurar. Qadınlar isə belə mühitlərdən daha çox baş çıxarmağı bacardıqlarından, administrativ sferada təşəbbüsü ələ alırlar və bununla da, feminizasiya prosesinə təkan vermiş olurlar. Bəzən ağıllarından belə keçirmədikləri bir vəzifə onlara həvalə olunur və özləri də bilmədən yüksək postları əldə etmiş olurlar.

Sosioloji sorğuların nəticələri göstərir ki, kişilərdə «kişi» xarakterinin yoxa çıxmasının bir mühüm səbəbi də, oğlan uşaqlarının anaları tərəfindən tərbiyə edilməsidir. Analar da bunu özünəməxsus şəkildə edirlər. Guya onları çətinlikdən qoruyurlar, onları «pis mühit»dən mühafizə edə-edə, digər qadının himayəsinə (həyat yoldaşlarının) ötürürlər və kişi feminizasiyasının labüdlüyünü qaçılmaz edirlər. Qadınlar bəzən etiraf edirlər ki, onlar ərlərində əsas qüsuru, onların uşaq tərbiyəsindəki məsuliyyətdən boyunlarını kənara çəkmələrində və onlara az qayğı göstərmələrində görürlər. Təəssüf ki, bu işin nə qədər çox məsuliyyətli olmasını hələ də tam dərk etməyənlər var. Kişilərin çoxu nədənsə, öz boyunlarını bir mənalı şəkildə bu məsuliyyətdən kənara çəkir və bu vəzifəni qadınların işi hesab edirlər, sonda bununla əlaqəli hər hansı bir xəta vaş verərsə, bu günahı özlərində deyil, qadınlarda axtarırlar. Ümumiyyətlə, bu kişilər üçün önəm kəsb edən mövzu deyil, bu qadın söhbətidir, kişilərin əsas məramı onların işidir və onların bütün cəhdləri bu istiqamətə yönəlməlidir. O qadınlardır, əksəriyyəti həm ev, həm də iş vəzifələrini tarazlığını tənzimləməkdən ötrü, hər bir fədakarlığa hazırdırlar və bunlardan birindən vaz keçmək tələb olunursa, onlar çox vaxt ailəyə üstünlük verirlər. Ola bilsin, kişilər bunu etiraf etmirlər, lakin bu bir danılmaz həqiqətdir karyerasını ailəsinə qurban verən kişini gündüz çıraqla da tapmaq müşkül bir işdir. Amma məsələni başqa tərəfdən cözəndə nəyin şahidi oluruq?

Nə qədər müasirləşən cəmiyyətdə yaşasaq da, qadınların böyük əksəriyyəti yaxşı ər deyərkən, yaxşı pul qazanan əri nəzərdə tuturlar və stereotipləşmənin yaradıcısı elə özləri olurlar (məs., filankəsin əri əsil arvaddır, nə vaxt baxırsan arvad işləri görür, yır-yığış edir, uşaqla məşqul olur və sairə). Onlar heç ağıllarına da gətirmirlər ki, həmin kişilərin də haqqı var ki, ev işlərində, uşaq tərbiyəsində özlərini sınasınlar. Işini itirmiş qadın nə qədər istəsə evdə oturar, ev işləri ilə məşqul olar, amma analoxi vəziyyət kişinin başına gəlibsə, necə deyərlər, kişi üçün qara günlər başlayır. Beləliklə, maliyyə cəhətdən bəxti gətirməyən bu kişilər, həm psixoloxi, həm də mənəvi cəhətdən sıxıntı, iztirab içində yaşamağa düçar olurlar. Bəzən də, evə yaxşı maaş gətirən qadınlar, heç bir əlavə səbəb olmadan ərlərindən boşanırlar, səbəb aydındır, sadəcə, artıq yükdən (pul qazanmayan ərlərindən) azad olmağı daha sərfəli hesab edirlər.

Yaxınlarda işgüzar qadınlar arasında aparılan sorğunun təxmini qısa şərhini siz oxucuların nəzərinə çatdırmaq istərdim.

Sual: Əgər kişi olsaydınız, buna görə həyatda uğurunuz çox olardı, yoxsa uğursuzluğunuz?

Müxtəlif qadınların verdikləri maraqlı cavablardan bəzilərini sizlərin nəzərinizə çatdırmaq istəyirəm:

-Mən xoşbəxtəm ki, mən qadınam və bu dövrdə yaşayıram, elə bir zamandakı qadınların özünü realizə etmə imkanı kişilərinkindən daha çoxdur.


-Tarixdə ilk dəfədir elə bir zaman gəlib ki, qadınlar təhsildə, təbabətdə, jurnalistikada, kommersiyada belə aktiv təmsil olunurlar. Iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada qadın olmasın. Vəziyyət təkcə siyasətdə ürək açan deyil, eyib etməz orada da, kardinal dəyişikliklərin zamanına çox qalmayıb. Gəzdiyim ölkələrin təcrübəsinia, öz olkəmdəki müşahidələrimə rəğmən onu deyə bilərəm ki, kişilərin iş aktivliyixeyi aşağı düşüb.

- Baxmayaraq ki, kişilərin iş icraçılığı üçün imkanları, qabiliyyətləri daha çoxdur, qadınlar vəzifələrinə, problemlərin həllinə daha yaradıcı, daha kompleks yanaşdıqlarına görə, onlara daha çox inanırlar.

- Fransada, Almaniyada, Böyük Britaniya və sairə ölkələrdə məs., elə bizim öz ölkəmizdəki kişilərdə müşahidə olunan eqosentrizm, özünəvurğunluq, özünəmüştəbehlik və sairə hamını zara gətirib və nəticədə sifarişlər bizə nəsib olur.

- Kişilər zamanla ayaqlaşmağa az səy göstərirlər və hər tərəfdə könüllü olaraq pozisiyalarını bizlərə verirlər və mən bunun səbəbini də cəmiyyətin mexanizmində-quruluşunda görürəm.

-Müasir dövrdə kişilər qadınlar üzərində itirdikləri gücü sadə metodla, zorakılıqla bərpa etmək istəyirlər. Qanunla bərpa etdikləri hüquqları geri verməməkdə iddialı olan qadınlarla bacarmaq o qədər də asan olmadığı üçün, qanundan kənar oyunlar kişilərə baha başa gəlir və bəzən bu çox acınacaqlı sonluqla bitir, və nəticə etibarı ilə əziyyət çəkən yenə kişilər



olurlar. Başqa metodlara malik olmadıqları üçün bu günkü durum təsdiq edir ki, hələ ki, kişilərə çox çətindir...

Bu günlərdə Rusiyada nəşr olunan qəzetlərin birində «Matriarxat labüddür?» («**Матриархат неизбежен?**») **adlı məqalədə** tanınmış bir işgüzar xanım kişilərlə iş ortaqlığının çətinliyindən gileylənir və onlar haqqında aşağıdakıları söyləyir: *Kişilərlə bir iş birliyi yaradanda onlara o qədər də güvənə bilmirəm, içimdə hər zaman onlara qarşı bir inamsızlıq olur. İş-birliyini hələ kənara qoyaq ümumiyyətlə, onların öz aləmi var, obyektiv şəraitin çoxdan ciddi həyacan siqnalı verməsinə baxmayaraq, belə getsə kişilərin deqradasyası qaçılmazdır, çünki onlar dəyişmək istəmirlər. Ruhi aləmlərindəki boşluq, qadınlarla aralarında anlaşılmazlıq, katastrofik şəkildə artır. Özümüzü yalandan sakitləşdirmək əbəsdir ki, bizi təbiət belə yaradıb və əsas instinktə bel bağlasaq ki, bu dəfə də o hər şeyi yoluna qoyacaq, yenə yanılarıq. Inanın ki, elmin belə kosmik sürətlə inkişaf etdiyi bir zamanda belə şeylər keçməz. Bizə hər şeyi ayrılıqda yox, birlikdə maraqlı olmalıdır. Bu bir tərəfli istək olmamalıdır. Qadınlar dialoqa hazırdırlar, bəs siz kişilər buna hazırsınızmı? Biz matriarxat dövründə yaşamışıq, ona dönmək bizim nəyimizə lazımdır. Mən feminist deyiləm, mənim onlara-kişilərə ehtiyacım var, mən onlarla yaxın olmaqdan zövq duyuram, onlara heyran qalmaq istəyirəm. Istəyirəm ətrafımda məni qoruyan güclü kişi görüm.*

Bu proses təkcə Rusiyada baş vermir, digər ölkələrdə də buna oxşar olaylar gərəyan edir.

Biz bugün necə yaşamalıyıq?

Həm qloballaşan, həm də rəngarəngləşən, həmçinin yeni fundamentalizmin mövcud olduğu dünyamızda dəyərlər və etika önə çəkilməlidir. Gender və seksuallıq zaman-zaman əxlaq və mədəni konfliktlər arenaları olmuşdur. Belə olan tərzdə qarşıya çoxlu suallar çıxır: gələcək həyatı necə yaşamalı? Hansı əxlaq və davranış normalarını qoruyub saxlamalı? Qərbə üz tutmalı, yoxsa Şərqə? Bu suallara cavab vermək heç də asan məsələ deyildir. Müasir cəmiyyətdə bu konfliktlər səngimək əvəzinə daha da artır, dəyərlər və vətəndaşlıqla bağlı əsas debat mövzuları olur. *Biz kimik və biz nəyik, bizə nə lazımdır və nə arzulayırıq* kimi məsələlər, gender və seksualıq ətrafında gedən kəskin debatlardır. Elə ona görə də, bu debatlar qəzəb və qeyri-müəyyənliyə gətirib çıxarır. Dünyada patriarxal və dini ailələrdə ənənəvi gücün mənbəyi intensiv təzyiqdədir və oturuşmuş dəyərlər var ki, hər kəsdən bunları dəstəkləmək tələb olunur. Fərdlərin ehtiyac və istəklərini, qarşılıqlı vəzifələrin və müxtəlif fikirliliyin anlaşıqlıq balansını saxlamaq çətindir. Gender və seksuallığın cəmiyyətdə faydalılığını görmək bizə imkan verir ki, öz sosial nizamımızdakı imkan və şanslarımızı anlayaq. Elə bu bizə necə yaşayacağımızı göstərir.

Birinci addım bizim fərqli dəyərimizi anlamağımızdadır. İnsanlar arasında fərqlərin dərki elə dəyişmək üçün əsasdır. Bu dəyişməyə qərar vermək necə yaşamaq üçün ən yaxşı məsləhətdir.

Kifayət AĞAYEVA
Xəzər Universitetinin müəllimi

Ədəbiyyat

1. *Quluzadə Z. Gender Azərbaycanda. B., 2003, s.79.*
2. *Cəlilov M., Məmmədov A. Davranış, əxlaq, din. B., 1981, s.8.*
3. *Иудин А.А. Социальные трансформации: экономические установки населения и массовое политическое, с.147-148.*
4. *Лыткина, Т.Распределение власти в семье... с.50-65.*
5. *Тартаковская И. Мужская работа, женская работа, Альманах социальных исследований, 2001, №16-17, с.87-101.*
6. *Хабермас Ю. Будущее человеческой природы. На пути к либеральной евгенике? М., 2002, с.94.*
7. *David Bender & Bruno Leone. Male/Female Roles, pp.114-130.*
8. *Irish Journal of Sociology. Vol. 14 (2) 2005, pp.53-65.*

Сбылась ли эта мечта?

МЕЧТА МАРТИНА ЛЮТЕРА КИНГА О РАСОВОМ РАВЕНСТВЕ

Это были марш и речь, которые мир не может забыть. 28 августа 1963 года примерно 250 000 человек прошли маршем к мемориалу Линкольна в Вашингтоне, где услышали, как Мартин Лютер Кинг произнес непревзойденно яркую речь. Она начиналась словами "У меня есть мечта" и под таким названием вошла в историю. Это было страстное выступление в поддержку требований движения за гражданские права в США - равноправия всех граждан, в том числе тех, кто родился с черным или коричневым цветом кожи.

Речь, произнесенная перед завершением крупнейшей на тот момент демонстрации в истории США, породила новый дух надежды по всей стране. Это был один из тех редких моментов в истории, которые изменили страну, проторив путь к преобразованию законодательства и жизни в Америке.

"Это был очень мирный день. На Национальном молле в центре Вашингтона – тысячи людей. Море лиц - не только черных, но и белых", - вспоминает Дороти Хайт, почетный президент Национального совета негритянских женщин. Она входила в число организаторов марша и сидела за возвышением, с которого выступал Кинг. "Думаю, это был решающий момент не только в истории гражданских прав в США, но и во всей американской истории. Люди вновь обрели решимость добиваться равенства, свободы и большей занятости для цветных", - добавила она.

Хайт, которая до сих пор активно занимается общественной деятельностью и является автором мемуаров "Врата свободы распахните", говорит: "Подлинное значение марша и речи заключалось в том, что они изменили настроения в обществе. После марша праведный гнев против расовой дискриминации охватил широкие массы. И потом наступило время, преисполненное надежд и свершений. Вы можете это ощутить". С ней согласен конгрессмен-демократ из Джорджии Джон Льюис, самый молодой из ораторов, выступавших на марше 1963 года, когда ему было 23. "Благодаря маршу, благодаря тому, что к нему подключились сотни и тысячи рядовых граждан, мы пережили то, что я бы назвал ненасильственной революцией в рамках власти закона – революцией ценностей, революцией идей".

Вскоре перемены, о которых говорят Хайт и Льюис, стали ощутимы. Не прошло и года после марша, как президент Линдон Джонсон подписал Закон 1964 года о гражданских правах, который запретил дÞскриминацию в общественных местах, подобных гостиницам и ресторанам, а также запретил дискриминацию при трудоустройстве. В следующем году был принят Закон об избирательных правах, обеспечивающий афроамериканцам право голосовать на деле, а не только на бумаге. В 1968 году Конгресс принял Закон о запрещении дискриминации в жилищной сфере, который прекратил дискриминацию при покупке и аренде жилья. Этот знаменательный закон был дополнен новыми правилами, в том числе так называемыми аффирмативными мерами, направленными на преодоление остатков дискриминации и улучшение положения афроамериканцев в целом.

Антидискриминационные законы, принятые в 1960-е годы, считаются высшим достижением движения за гражданские права. Закон о гражданских правах положил конец наиболее вопиющим формам сегрегации и дискриминации - вековые оскорбления цветного населения ушли в прошлое. Закон об избира-

тельных правах предоставил миллионам афроамериканцев возможность участвовать в политической жизни, в результате чего число чернокожих на выборных должностях резко возросло.

Новые законы вступали в силу немедленно. Изменение в умонастроениях потребовало времени. В ходе опроса, проводившегося в 1963 году журналом "Ньюсуик", 74 процента белых заявили, что расовая интеграция "продвигается слишком быстро". Сегодня, когда настроения в обществе совершенно иные, подобная точка зрения кажется шокирующей. Например, в ходе опроса, который проводила в 2000 году газета "Нью-Йорк таймс", 93 процента белых ответили, что проголосовали бы компетентного чернокожего кандидата в президенты. Более 60 процентов одобрительно относятся к межрасовым бракам. А 80 процентов указали, что им все равно, какие у них соседи - белые или чернокожие.

Если бы Кинг был жив сегодня, он, скорее всего, приветствовал бы достижение большинства целей марша 1963 года, но одновременно подчеркнул бы, что его мечта осуществилась еще не в полной мере, особенно в отношении равенства экономических возможностей. Это мнение также подчеркивали лидеры движения за гражданские права, в том числе Хайт и Льюис. "Мы добились того, что мечта Кинга во многом сбылась", - говорит Льюис. Однако он добавляет: "Нам еще предстоит долгий путь". Преодоление хронического разрыва между расами в экономике и образовании, впрочем, является гораздо более сложной задачей, нежели прекращение юридически закрепленной сегрегации и введение избирательных прав.

Что же касается Кинга, то его мечта, о которой он говорил во время марша в Вашингтоне, ныне стала реальным элементом основного русла политической жизни, а его день рождения - государственным праздником, когда американцы особо чтят его идеи и память. Политические лидеры обеих ведущих партий поддержали строительство посвященного ему мемориала в столице, где находятся мемориалы трех гигантов американской истории - президента Авраама Линкольна, Томаса Джефферсона и Франклина Делано Рузвельта. Пожалуй, мерилом того, насколько может вырасти и измениться страна, служит то, что ныне подавляющее большинство американцев считает мечту Кинга неоспоримой истиной.

И не только американцев. На протяжении своей короткой жизни, которая продолжалась всего 39 лет, Кинг боролся за расовую справедливость повсюду, а не только в Соединенных Штатах. С этой целью он ездил по всему миру, провозглашая свою идею "общества, основанного на братской любви" и борясь с расизмом как с мировым злом. "Один из нравственных императивов нашего времени состоит в том, что мы призваны работать по всему миру с непоколебимой решимостью, чтобы искоренить последние пережитки расизма, - отмечал он. - Этот феномен не является чисто американским. Его порочная природа не признает государственных границ".

Даже в день марша, когда Кинг произнес свою знаменитую речь "У меня есть мечта", обращаясь конкретно к американцам, он осознавал ее всемирное значение. "Поскольку с помощью телевидения это уникальное событие пересекло границы и океаны, - сказал он, - каждый, кто верит в способность человека к самосовершенствованию, на мгновенье испытал вдохновение и уверенность в будущем человеческого рода".

Именно общечеловеческую значимость событий 28 августа 1963 года подчеркивает Хайт. "Где бы я ни была в мире за последние 40 лет, везде меня поражает, как много знают люди о движении за гражданские права и о Кинге - часто в мельчайших подробностях. В тот день на нас смотрел весь мир, - говорит она. - Марш затронул не только Америку, но и весь мир".

(Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://usinfo.state.gov/russki/)

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



Gənclər Günümüz Mübarək!

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 2 fevral 1997-ci ildə imzaladığı fərmana əsasən hər il fevral ayının 2-si Azərbaycan Gəncləri Günü elan olunmuşdur. Prezident İlham Əliyev isə 2007-ci ili "Gənclər ili" elan etmişdir.

Azərbaycanda əhalinin 59 faizini gənclər təşkil edir. Gənclərin 57 faizi şəhərlərdə, 43 faizi isə kəndlərdə yaşayır. Gənclərin problemlərini həll etmək üçün Dövlət Gənclər Proqramı icra olunur. Ölkəmizdə 170 qeydiyyatdan keçmiş gənclər təşkilatı fəaliyyət göstərir.

Nəzərə alsaq ki, ölkə əhalisinin böyük hissəsi gənclərdir, deməli, gənclər bütün sahələrdə əksəriyyət təşkil edir və onların problemləri daha öndə durur, uğurları isə dövlətin uğurudur.

Bu gün hər 1000 nəfər gəncdən 900-nün orta, orta ixtisas və ya ali təhsili vardır.

Ali məktəblərdə 129 min, orta ixtisas məktəblərində 57 min gənc təhsil alır. Elmi fəaliyyətlə məşğul olanlar arasında gənclərin xüsusi çəkisi vardır. Aspirantların 95 faizi gənclərdir. Hazırda xaricdə 1100-dən artıq gənc təhsil alır. Gənclər ölkə iqtisadiyyatının bütün sahələrində çalışırlar. Fəal, yəni işləyən əhalinin 39 faizini gənclər təşkil edir.

Bu gün ölkədə kompüterdən istifadə edənlərin 77 faizini gənclər təşkil edir. İnternetdən istifadə edənlərin 80 faizi, telefon istifadəçilərinin 60 faizi gənclərdir.

Bu gün gənclərimizin bəzi göstəricilərinə görə isə təəssüf edirik. Alkoqolizm xəstəliyinə düçar olanların, siqaret çəkənlərin, törədilən cinayətlərin müəyyən faizi gənclərin üzərinə düşür. Boşanma hallarının 40 %-dən çoxu gənc ailələrin payına düşür.

Amma bütün bunlara baxmayaraq ölkənin elə bir sahəsi yoxdur ki, orada gənclər işləməsin. Bayrağımızı daim yüksəklərə qaldıran, hər il ölkəyə yüzlərlə medal gətirən də məhz gənclərdir.

Dövlətin gənclərə diqqəti danılmazdır. Bu sahədə bir çox işlər görülür, dövlət proqramları həyata keçirilir, gənc ailələrə sosial yardım məqsədilə ipoteka kreditləri verilir. 2007-ci il tələbələrin təqaüdləri 50% artırılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev XXIX Yay Olimpiya

Oyunlarına hazırlıqla bağlı xüsusi sərəncam imzalamışdır.

Gənc idmançılarımız müxtəlif növlər üzrə mötəbər yarışlarda iştirak edir. Dövlətimiz gənclərimizə, onların uğurlarına çox inanır.

Azərbaycanın ən böyük sərvəti onu sevən fədakar insanlarıdır. Cəmiyyətin ən qiymətli sərvəti isə gənclərimizdir. Gənclik illəri ələ düşməyən, yaş artdıqca böyük məhəbbətlə və həsrətlə xatırlanan günlərdir. Eyni zamanda insan bu günləri xatırlayarkən itirdiyi günlərə, səmərəsiz keçirdiyi anlara görə özünü qınayır, heyfslənir.

Əziz gənclər! Bu günlərdən, aylardan, gənclik illərindən səmərəli istifadə edin, boş vaxt sərf etməyin, yaxşı oxuyub, yaxşı təhsil alın. Özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın. XXI əsrdə Azərbaycan bayrağını daha yüksəklərə qaldırın.

Sizi müstəqil Azərbaycanın Gənclər günü münasibətilə ürəkdən təbrik edir, sizə xoşbəxt gənclik, sağlamlıq və uğurlu gələcək arzulayırıq!

Sorğu

Müasir gənclərimiz necə olmalıdır?

Gənclər günü ilə bağlı "Dünya" məktəbinin VIII sinif şagirdləri arasında sorğu keçirməyi qərara aldıq. Suallarımız belə idi:

1) Müasir gənclərimizdə hansı xüsusiyyətləri görmək istərdiniz?

2) Bugünkü gənclərimizin hansı qayğılara ehtiyacı vardır?

Həmin sorğunun nəticələrini oxucularımıza təqdim edirik.

A. Nigar:

1) Mən müasir gənclərin vətənə bağlı, vətənə sadiq olmalarını istərdim.

P. Nərgiz:

1) Mədəniyyət, hörmət.

2) Qarşılıqlı başadüşmə, həmişəkindən qat-qat çox valideyn qayğısı.

R. Elvin:

1) Özlərindən böyüklərə hörmət etmək. Müasir üsluba uyğunlaşmaq.

R. Seymur:

1) Ədaləti, əxlaqı, hörməti bacarmalıdır.

2) Dost və qardaş qayğısına.

C. Nailə:

1) Vətənpərvər, savadlı, azad, müstəqil fikirli, ədəbli, qorxmaz görmək istərdim.

2) Özlərinə inam, qürur, birlik.

C. Nizam:

1) Biliyə maraq, qohumlarına və başqalarına arxalanmamaq.

2) Böyüklərin onları psixoloji baxımdan başa düşməsi.

C. Ləman:

1) Mən müasir gənclərimizdə vətənpərvərlik hissinin daha da yüksək olmasını görmək istərdim.

2) Mənc, gənclərimizin özlərinə inama ehtiyacı var.

H. Laçınxanım:

1) Məncə, gənclik illəri ən gözəl yaş dövrüdür. Mən bizim gənclərdə demək olar ki, bütün xüsusiyyətləri görürəm. Yalnız biri qalıb – vətənpərvərlik.

2) Məncə, gənclərə valideyn qayğısı çatmır.

M. Yetər:

1) Dövlətimizə, tariximizə hörmət. Ən əsası bir-birini dinləməyi, başa düşməyi bacarsınlar. Hər birində adımızı ucaltmaq istəyi olsun.

2) Onlara yaxşı nəsihətlər verən insanlara ehtiyac vardır.

Y. Nərmin:

1) Oxumağa həvəslərinin, düşüncələrinin olması. Yeri gələndə ciddi, yeri gələndə də gülməyi bacarmağı bilsinlər.

2) Daha çox ana və ataları tərəfdən sevgiyə ehtiyacları var. Çünki bəzən valideynlər gənclərin artıq böyüdüyünü düşünür və onlara qarşı əvvəlki tək qayğı göstərmirlər.

Ə. Orxan:

1) Kiçiklərə hörmət etməlidir. Vətən sevgisi olmalıdır.

Ə. Kənan:

1) a) Yüksək təhsilli olmaları; b) Oğlanlar ailənin ikinci atası, qızlar ailənin ikinci anası olmalıdır.

2) Mənim fikrimcə, XXI əsr gənclərinin əsas ehtiyacı budur: valideynlərinin sevgisi və maddi imkan.

N. Hafiz:

1) Yardım etsinlər, əliaçıq olsunlar, ürəyitəmiz, qızlarımız oğlanlara, oğlanlarımız isə qızlara qarşı hörmətcil olmalarını istərdim. Bir peşə sahibi olmaları, pis əməllərdən uzaq olmalarını istərdim.

2) Onlar böyüklərdən çoxlu məsləhət almalıdır. Böyük adamlarla, sənətkarlarla, şairlərlə görüşmələrini, onlardan vacib şeylər öyrənmələrini istərdim.

M. Emin:

1) Əvvəllər gənclər "Sonunu düşünən qəhrəman ola bilməz" deyirdilər, "Öncə vətən, sonra ana" deyirdilər. İndi gənclərin çoxu belə deyil, qalanları isə vətənini sevən, "ana sevgilim, vətən mənim canımdır" deyən cavanlardır.

2) Məsuliyyətin ən böyüyü öncə valideynlərə, sonra dostlara düşür. Müşahidələrimə görə, cavanlar sirlərinin hamısını dostlarına danışırlar. Gərək valideynlər öz övladları ilə dost olsunlar. Səhv edəndə onlara söylənməsinlər, yanlarında olub, onları başa düşsünlər.

Q. Cavid:

1) Müasir gənclərimizdə mən ən çox böyüklərə hörmət görmək istəyirəm. Məsələn, indi avtobuslarımızda, metrolarımızda yaşlı adamlar ayaq üstündə dururlar, ancaq gənclərimiz otururlar. Mənə elə gəlir ki, biz bütün yaşlılara hörmət etməliyik!!!

2) Məncə, bizim mağazalarda siqaret, spirtli içkilər satışdan çıxarılmalıdır. Biz gəncəri daha çox elmə yönəltməliyik.

A. Davud:

1) Mən gənclərimizdə mərdliyi, qəhrəmanlığı, vətənsevərliyin yüksək səviyyədə olmasını görmək istərdim. Çünki Azərbaycanın ən vacib işlərindən biri də budur. Bir də istəyərdim Allahı unutmayaq.

2) Bugünkü gənclərimizin oxumağa böyük ehtiyacı var. Amma bu bəzi insanlara nəsib olmur. Biz çalışmalıyıq ki, buna imkanı çatmayanlara kömək göstərək. Bu gün həyatımızı bürüyən kompüteri dərindən öyrənmək bu zəmanə üçün çox vacibdir. Ona görə də kompüter dərsləri gücləndirilməlidir. Bu zəmanədə həyatı kompütersiz fikirləşmək mümkün deyil.

A. Fərhad:

1) Mən gənclərimizi Vətən üçün canını verən, bu yoldan çəkinməyən, cəsur, igid, uzaqgörən istəyirəm. Qoy Azərbaycan gəncləri öz valideynlərinin dediklərinə qarşı çıxmasınlar. Alkoqoldan, narkotikadan, avaraçılıqdan uzaq olsunlar. Öz cavanlıq, gənclik dövrlərini məhv etməsinlər. Cavanlar bəzi pis işlərlə məşğul olmasınlar, vətənə, öz valideynlərinə sədaqətli olsunlar.

2) Məncə, bugünkü gənclərin əsasən valideyn qayğısına ehtiyacı var. Ona görə valideynlər öz uşaqlarına həm də yaxın bir dost kimi yanaşmalıdır. Çunki biz belə etməsək, onlar da öz uşaqlarına qayğısız yanaşar.

R. Vüqar:

1) Məncə, indiki gənclərimizdə vətənə xidmət üçün həvəs yaranmayıb, gənclər əsgərliyə getməmək üçün çoxlu bəhanələr yaradırlar. Bu işdə yaşlıların və televizyaların böyük rolu olmalıdır. Çünki Azərbaycanın sağlam gələcəyi və ərazi bütövlüyünün qaytarılması biz gənclərdən asılıdır. Mən inanıram ki, bizim gənclər bu işin də öhdəsindən gələcəklər.

S. İlkin:

1) Mən istərdim ki, bizim gənclərimiz heç vaxt yalan danışmasınlar. Mədəni, tərbiyəli olsunlar, nizam-intizama riayət etsinlər. İstərdim ki, indiki gənclər elmlə, dinlə məşğul olsunlar. Alkoqola, siqaretə maraqları olmasın. Onlar çalışsınlar ki, dövlətimiz inkişaf etsin. Müharibə olsa bizim gənclərimiz heç nədən qorxmadan müharibədə iştirak eləsinlər. Onlar bizim fəxrimiz, gələcəyimizdir.

2) Məncə, onların yaxşı məsləhətlərə ehtiyacları var. Amma bir şərtlə ki, onlar bu məsləhətləri yerinə yetirsinlər.

Sorğunu apardı:
Nərmin Hümbətəliyeva,
"Dünya" məktəbinin müəllimi

Bayatılar

Əzizim el yoludu,
Bu gələn el yoludu.
Başımda bulud oynar,
Gözlərim sel yoludu.

Mən aşiq sini, sini,
Doldur iç sini, sini.
Mənə öz yarım gərək,
Neylirəm özgəsini?

Eləmi yada məni,
Satdılar yada məni.
Kimim, kimsənəm yoox,
Bir salsın yada məni.

Əzizim yasəməni,
Dərmişəm yasəməni.
Getdin, arxaya baxdın,
Batırdın yasa məni

Əzizim Ordubada,
Yol gedir Ordubada,
Sərkərdə qoçaq olsa,
Heç verməz ordu bada.

Kəm baxtı sönən qərib
Qürbətdə ölən qərib
Bəxtəvər günə düşdü
Vətənə dönən qərib.

Əziziyəm dilən gəz,
Bağda gülə dilən gəz,
Qürbətdə xan olunca
Vətənində dilən gəz.

Yol vermə yada, Təbriz,
El gedər bada Təbriz,
Sənin həsrətindəyəm
Can sənə fəda Təbriz.

Bu elin adi nədir?
Dostu nə, yadı nədi?
Qürbət eldə bilmədim,
Ağzımın dadı nədı?

Gəmi gəldi, yan gəldi,
Içində bir can gəldi.
Vətən həsrəti çəkdim,
Gözlərimə qan gəldi.

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org